NƏFƏS LGBTİ
AZƏRBAYCAN ALYANSI

# AZƏRBAYCANDA LGBTİ+ HÜQUQ POZUNTULARININ MONİTORİNQİ

2020

# MÜNDƏRİCAT


01

İstifadə olunan terminlər

02

Giriş

03

2020-ci ilin icmalı

04

Beynəlxalq və yerli hüquqi çərçivə

05

COVİD-19 Pandemiyası və müharibə

06

Monitorinq qrupunun müsahibi olduğu şəxslər

07

Hüquqi qiymətləndirmə

08

Əlavələr və son

# İSTİFADƏ OLUNAN TERMİNLƏR

LGBTİ+ – Lezbiyan, Gey, Biseksual, Transseksual, İnterseksual və digər şəxslər. Bu abreviatura ümumilikdə seksual oriyentasiyası və gender kimliyi ilə fərqlənən digər bütün şəxsləri ifadə etmək üçün istifadə olunur.

Seksual oriyentasiya – fərdin başqa şəxslərə qarşı duyduğu emosional, romantik hisslər və seksual marağı və bu maraqlara əsaslanaraq şəxsi və sosial kimliyini ehtiva edir.

Heteroseksuallıq – fərdin əks genderə qarşı duyduğu romantik hisslər və seksual maraq.

Homoseksuallıq – fərdin öz genderinə qarşı duyduğu romantik hisslər və ya eynicinslilər arasında yaşanan romantika, eşq və seksual maraq. Biseksuallıq – fərdin həm həm- cinsinə, həm də digər cinsə qarşı duyduğu romantik hisslər, eşq və seksual maraq. Seksual oriyentasiya - "tənzimləyici diskurslar" çərçivəsində qurulmuş arzu subyektidir. Bunlar "ağlın çərçivələri" və ya "intizam rejimləri" adlandırılan seksuallıq imkanlarının sosial baxımdan nə qədər uyğun və ya "təbii" görünməyə icazə verildiyini əvvəlcədən müəyyənləşdirirlər.

Gender/Gender kimliyi – performativ aktdır, olduğu iddia edilən kimliyi forma- laşdırır. Gender həmişə əvvəlcədən mövcud olduğu deyilə biləcək bir mövzuya aid edilməməsinə baxmayaraq həmişə "edilən" bir aktdır. Gender fərdi istehsal edən davamlı bir performansdır və insanın nəzarətindən kənardır. Gender hakim cəmiyyət normalarına uyğun olduğu deyilən bir sıra aktlar vasitəsilə konstruksiya olunur.

Homofobiya – Homoseksuallara qarşı nifrət, qorxu, qəzəb və ya dözümsüzlük. Daha geniş mənada - bütün LGBTİ+ icmasının nümayəndələrinə qarşı mənfi münasibətlərin hər hansı bir təzahürü (nifrət, düşmənçilik, təcavüz).

Transfobiya – Trans*lara qarşı gender kimliklərinə görə nifrət, qorxu, qəzəb və ya dözümsüzlük.

Trans* – özünü doğuş zamanı ona təyin olunan genderdən fərqli hiss edən, doğuş zamanı ona təyin olunan genderdən fərqli genderə bənzəmə istəyi duyan və ya özünü doğuş zamanı ona təyin olunan genderdən fərqli biriymiş kimi hiss edən şəxslər.

İnterseks – həm qadın, həm də kişi cinsiyyət xüsusiyətlərinə sahib olan insanlar.

Kaminq aut – fərdin seksuallıq və/və ya genderinin könüllü olaraq açıqlanması prosesi.

Autinq – istək və razılıq olmadan bir şəxsin seksuallığı və/və ya gender kimliyi haqqında şəxsi məlumatların açıq şəkildə yayılması.

# GİRİŞ

Nəfəs LGBTİ Azərbaycan Alyansının 2020-ci il Azərbaycanda lezbiyan, gey, biseksual, trans, interseks və digər fərdlərin hüquq pozuntularına dair hesabatına xoş gəlmisiz. Hesabat 2020-ci ilin yanvar ayından həmin elə dekabr ayına qədər baş vermiş LGBTİ+ hüquq pozuntularını və hadisələri əhatə edir. Hesabatda həmçinin LGBTİ+lərin hüquqlarına beynəxalq və yerli hüquqi çərçivə, baş vermiş hüquq pozuntularının icmalı, dövlətə təkliflər yer alıb.
LGBTİ+ məsələləri ətrafında terminologiyanın istifadəsi çox vaxt yerli media, icma və aktivistlər arasında uyğunlaşdırılmamış olaraq qalır. Buna baxmayaraq hesabatda bütün məlumatlar icma üzvlərinin doldurduğu anketlərdən, orijinal sənədlərdən və mövcud xəbər və digər informasiya kanallarından istifadə etməklə təsdiqlənmişdir. Məlumatlar institusional və milli hesabatlar və etibarlı xəbər mənbələri ilə yoxlanılıb.
Nəfəs LGBTİ+ Azərbaycan Alyansı hesabatın hazırlanmasında özünün tətbiq etdiyi terminlərdən istifadə etmişdir. Eyni zamanda da, LGBTİ+ icmasının fərqli yerlərdə özünü tanıma üçün istifadə etdiyi və mediada və ya digər hesabatlarda qeyd olunan müxtəlif ifadələrə hörmət göstəririk. Məsələn, bu səbəbdən hesabatda yalnız LGBTİ+ deyil, eyni zamanda ‘ LGBTİ’, ‘ LGBTQİ+’ və digər formulalara da istinad edilir.
COVID-19 pandemiyası və onunla əlaqədar qərarlar hər yerdə olduğu kimi Azərbaycanda da LGBTİ+lərin həyat reallıqları baxımından bütün boşluqları vurğuladı:

- LGBTİ+lərə qarşı şiddət və nifrət ifadələrində kəskin bir artım olduğunu görürük;
- Evsizliyə həssas olanların çoxu onları qəbul etməyən ailə və icmalarına qayıtmaq məcburiyyətində qaldı;
- LGBTİ+ təşkilatları qida və sığınacaq kimi əsas ehtiyacların təmin edilməsinə yönəlmiş işlərini dəyişməli oldular;
- Hökumət ən həssas qruplardan olan LGBTİ+ləri nəzərə alacaq hər hansı bir qərar etmədi, trans* seks işçilərini tamamilə sığortasız tərk etdi.

Bir daha qeyd etmək istərdik ki, hesabat yalnız 2020-ci ildə baş vermiş hadisələri, LGBTİ+ hüquq pozuntularını əhatə edir. Verilənlər isə media analizləri, müxtəlif LGBTİ+ təşkilatların hesabat və xəbərləri və LGBTİ+ icma üzvlərinin Nəfəsə göndərdiyi aknetlər əsasında hazırlanmışdır. Çox təəssüf olsun ki, ölkədə LGBTİ+ və hüquqlar ilə əlaqəli bütün hadisələrə çıxışımız məhduddur. Bu səbəbdən də, qaçılmazdır və təəssüfedicidir ki, bütün hadisələri əhatə edə bilməyəcəyik.

2020-ci ili əhatə edən LGBTİ+ hüquq pozuntuları hesabatı RFSL təşkilatının dəstəyi ilə hazırlanmışdır.

RFSL

NƏFƏS LGBTI AZƏRBAYCAN ALYANSI

# 2020-Cİ İLİN İCMALI

Bu icmal İLGA-Avropanın illik icmalı əsasında, LGBTİ+ hüquq müdafiəçilərinin verdiyi informasiya əsasında tərtib edilib.

Gənc gey cütlük Sevgililər Günü özlərinin ertəsi gün sürətlə yayılmış videolarını paylaşıb. Cütlük paylaşımdan sonra ölüm təhdidi alıb və hətta bəzi insanlar cütlüyün öldürülməsi üçün pul ödəməyi də təklif ediblər. Cütlük polislə əlaqə saxlayıb, lakin polis onlara kömək etməkdən və istintaqa başlamaqdan imtina edib. Cütlük gizlənməli və yaşadıqları şəhərdən köçməli olub.

Mart ayında Qadınlar Günü aksiyasından sonra nifrət nitqi tüğyan edib. Aksiyanı "milli və dini dəyərlərə, ailə institutuna hücum" adlandıran onlarla ədavətli məqalə yazılıb; "feminizm adına fahişəlik və LGBİ+ hüquqlarını təbliğ etdiyini" söylənilib və aksiya iştirakçılar "Bakı küçələrində əxlaqsız QİÇS viruslar" adlandırılıb.

May ayında Azərbaycan müxalifətinin üzvləri olan Demokratik Qüvvələrin Milli Şurası (DQMŞ) internetdə yayılan onlayn görüşlərində homofobik açıqlamalar ediblər. DQMŞ üzvləri ABŞ-da yaşayan azərbaycanlı jurnalist İsmayıl Cəlilova açıq şəkildə homoseksual olduqlarına görə tənə vurublar. Vətəndaş Həmrəyliyi Partiyasının idarə heyətinin üzvü Rafik Manaflı "Hitlerin zamanında bütün geyləri yer üzündən silməməsi təəssüf doğurur," deyib. Nəfəs LGBTİ Azərbaycan Alyansı, Minority Azərbaycan və AZAD LGBT Kollektivi ölkənin siyasi rəhbərliyinin bu nifrət ritorikasını pisləyən ortaq bəyanat yayıb.

LGBTİ+ icmasına qarşı nifrət cinayətləri bu il də ciddi məsələ olaraq qalmağa davam edib.
May ayında Bakıda iki gey kişiyə hücum edilib. Polis istintaq aparmayıb.

İyunun 18-də Bakıda trans qadın və seks işçisi Aysu Məmmədli müştərisi olduğu iddia edilən şəxs tərəfindən bıçaqlanaraq öldürülüb. Cinayət Məcəlləsinin qəsdən adam öldürmə maddəsi ilə (120.1) cinayət işi açılıb. Bir gün sonra Bakıda başqa bir trans qadın da bıçaqlanıb, lakin qaçmağı bacarıb. Çoxsaylı bıçaq xəsarəti alan trans qadına müvafiq tibbi yardım göstərilməsindən imtina edilib və trans qadın qanaxması davam etdiyi halda xəstəxananı tərk etməli olub.

On səkkiz yaşlı Sevgiyə-Sübhani İsmayılova öz seksuallığı barəsində anasına açıldıqdan sonra ailə zorakılığına məruz qalıb. İsmayılova Rusiyada oxuyur və yanvar ayında ailəsi tərəfindən zorla Azərbaycana gətirilib. Ailəsinin "onu it kimi üç gün zəncirlədiyini" söyləyib. Daha sonra İsmayılova Bakıda sığınacağa aparılıb.

Polis iyul ayında bir qrup transı TikTok-da narkotik istifadəsini təbliğ etdiklərini iddia edərək saxlayıb. Polis, LGBTİ+ləri nüfuzdan salmaq və cəmiyyətdə onlar haqqında mənfi imic yaratmaq məqsədi ilə ifadələri paylaşıb və daha sonra dövlət mediasında yayımlayıb.

Martın 26-da Bakı Baş Polis İdarəsi bir qrup seks işçisi və "cinsi azlığı" Sabunçuda saxladığını paylaşıb. Seksual azlıqlara mənsub olduğu iddia edilənlər məcburi şəkildə tibbi müayinədən keçirilib.

21 yaşında trans qadın oktyabr ayında Vərəm, Hepatit C və digər əlaqədar sağlamlıq problemləri ucbatından lazımi tibbi müalicənin olmaması səbəbiylə vəfat edib. Ayan ailəsi tərəfindən gənc olaraq rədd edilib və 13 yaşından bəri seks işçisi kimi çalışıb. İllər keçdikcə gender kimliyinə görə təsadüfi həbslər, ayrı-seçkilik və evsizliklə üzləşib.

COVID-19 böhranı səbəbindən tətbiq olunan sərt karantin məhdudiyyətləri, LGBTİ+ləri, xüsusilə də bir neçə aydır gəlirlərini itirən trans seks işçilərinə dramatik təsir göstərib. LGBTİ+lərin əksəriyyəti kirayə pulunu ödəyə bilməyib və evlərini tərk etməli olublar.

"... indi, pandemiya zamanı az qala ac qalırıq. Tənzimləmələr yalnız iki saatlıq çölə çıxmağınıza imkan verir və bundan sonra da SMS vasitəsilə icazə almalıyıq. Bu, hətta bir müştəri tapmaq üçün kifayət etmir. İndi ev sahibimiz bizi qovmağa çalışır. Normal vaxtlarda belə ildə doqquz-on dəfə ev dəyişdiririk, heç birimizin daimi yaşayış yeri yoxdur, amma indi pandemiya bizi həqiqətən sarsıdıb "- IWPR-a ifadələrdən.

18 sentyabrda trans qadın gender kimliyinə görə evdən çıxarılmaqla təhdid edilib. Bu barədə Ombudsman aparatına şikayət bildirilib.

Mart ayında LGBTİ+ təşkilatları Nəfəs LGBTİ+ Azərbaycan Alyansı və Minority Azərbaycana səlahiyyətlilərin hücumu kimi görünən onlayn hücum edilib. Üzvlərindən bəziləri Bakıda keçirilən Qadınlar Günü marşına qoşulduqdan sonra da hədəf alınıb. Nəfəs LGBTİ+ Azərbaycan Alyansı və Minority Azərbaycan hesablarına yenidən girişi bərpa edib, lakin 2012-ci ildən bəri bütün izləyicilərini itiriblər.

# BEYNƏLXALQ HÜQUQİ ÇƏRÇİVƏ

## *Hüquqi çərçivənin kontektsi*

Hamının və hər kəsin fərq qoyulmadan fundamental və digər hüquqlardan istifadə edə bilməsi, ölkədə hər fərqdə insanın bir yerdə dinc yanaşı yaşaya bilməsi demokratik dövlətlərin əsas hədəflərdəndir. Bu baxımdan bərabərlik və onun ən əsas təminatı bütün növ ayrı-seçkiliklərin qadağan edilməsi prinsipi beynəlxalq hüququn *onurğa sütunlarından*dır. Fəqət, beynəlxalq hüquqi çərçivə çətin əmələ gəlib, kafi deyil, amma qıt, dar, süst deyil, aktiv 'maqmatikdir'.

Hazırda beynəlxalq sistemin tarixi-hüquqi iyerarxiyasında yuxarı pillədə duran sənəd - "ortaq ümumbəşəri konstitusiya" sayılan Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları haqda Universal Bəyannaməsi hər şeydən əvvəl ilk iki və 7-ci maddəsində universal bərabərlik hüququnu təsbit edir. Dərhal da, onunla orqanik bir vəhdətdə MƏHZ ayrı-seçkiliyin qadağasını prinsip kimi qəti təsbit edir. Əks halda, bərabərlik adi deklarativ (sözdə) elandan başqa bir şey olmazdı. Əlavə olaraq,  12-ci maddədə şəxsi həyata müdaxilə ayrıca qadağan edilir.

Sonradan bu normalar çoxsaylı sənədlərdə dəqiqləşib və genişlədilib. Onları real həyata keçirmək üçünsə qurumlar, mexanizmlər, konvensiyalar düşünülüb, qəbul edilib. Məhz onların sayəsində də əvvəllər hüquqda uzun müddət yadlaşdırılan, sodomizm adı altında demonlaşdırılan (ən yaxşı halda hüquqdankənar saxlanan) LGBTİ+ fərdlərinin şəxsi, ailə, seksual həyatı və başqa hüquqları bu damğadan, hüquqi qadağalar zəncirindən müəyyən qədər qurtulub. LGBTİ+ hüquqların bərabərhəcmli hüquq kimi tanınması – leqal inklüzivlik prosesi davam edir.

Lakin bu tanınma qanunlarda və praktikada hələ natamam, kasad qalır. Çox halda bu proses özü hüququn hadisələrindən kənarda və əvvəl baş verənlərdən - sosial-iqtisadi-siyasi faktorlardan, maraq və mənafelərdən ciddi asılı olur. Faktlar və rəqəmlər, onların zamanlaması özləri bariz "danışır": Homoseksual könüllü cinsi əlaqəni Fransız inqilabı leqallaşdırandan keçən iki əsr ərzində (1791-1985) cəmi 37 ölkə buna qatılıb. Sosialist İnqilabının təsirilə XX əsrin 20-ci illərində yeni cəmiyyət üçün yeni qanunlar köklü dəyişiklərlə, fərqli gələcək qurmaq üçün yazılanda sodomizm maddələri də cinayət məcəllərlərindən çıxarıldı. Lakin sonradan mürtəce praktikaya geri dönüldü.

80-lərdən bu yana isə yalnız 2015-ci ildə, LGBTİ+ hüquqları ən çox aktuallaşdığı dövrdə bu say 116 ölkəyə çıxa bilmişdi. O da 30 ilə ! Bu 116 məmləkətin əhalisi isə dünya əhalisinin yarısı (54%) ancaq edir. Yəni, hələ ki, planetin yalnız yarısında qanunlar və dövlət zərrəbin və qandal götürüb LGBTİ+lərin seksual həyatını təqib etmir. Müqabilində 69 ölkə həmcinslərin könüllü cinsi əlaqəsini cinayət sayıb birbaşa təqib edir. 9 ölkə heterenormativ olmayan bütün növ gender özünüifadə növlərini cəzalandırır, yəni transları və "gender-nonconforming" (gender uyğunsuzluğu) olanları da hədəfə alır. 7 ölkə homoseksual cinsi əlaqəyə görə ölüm cəzasını saxlamaqdadır. Digər tərəfdə isə, həmcins şəxslərin, ümumiyyətlə gender kimliyinə, seksual oriyentasiyasına görə heç kimə fərq və ayrı-seçkilik qoymadan, hər kəsin hamı və hər kəs kimi evlənə biləcəyini, bərabər və tam haqlı nikah bağlamaq haqqını hələ ki, 29 ölkə tanıyır.

Son dövlərdə yuridik aktivizmi çıxsaq, ənənəvi olaraq (beynəlxalq) hüquq yedəkdə gəlir demək olar: ictimai dəyişikliklər, trendlər, LGBTİ+ hüquqları konkret prosesdən, bəlli bir "çəkişmələr"dən keçib, inikasını hüquqda çox sonradan tapıb "bərkişir". Qərarvericilər bəlli dünyagörüşü, baxışlar və mənafelərdən yola çıxaraq hərəkət edir, onları rəhbər tutaraq qanunları (re-)dizayn edirlər. Bu səbəbdən, köhnə kök atmış normaları dəyişmək də çətin olur.

LGBTİ+ seksual müxtəliflik üzrə beynəlxalq analitiklər də vəziyyətdən çıxış yolları üçün tövsiyələrində haqlı olaraq bildirdiyi kimi: "bir ölkədə seksual müxtəlifliyi tənzimləyən qanunların o diyarın tarixi ənənələrinə bağlılığı olur, çünki hüquq özü adət hüququndan törəyib. Bir yandan da dini və konsuetudinar (rəhbaniyyət) qayda-qanunların təsirlərin rolu var. Ümumi hüquq (Common Law) ənənələri, yerli adətlərin və dini doqmaların mövcudluğu çox vaxt seksual müxtəliflik məsələlərində əsasən qadağanedici bir hüquq sistemi oturuşdurub. Belə sistemlər seksual müxtəlifliyə dair hüquqlarının adicə təbliğinə belə mane olur".

Əsas məsələ: inkar, rədd və qadağan edilmələrin öhdəsindən gəlmək üçün nə eləmək olar? – məsələsidir. Çünki nə yerli mədəni-mental mədəniyyəti əldə bayraq etmək, nə də dini arqumentlərlə silahlanıb insan hüquqlarına qarşı çıxışmaq, düşmənçilik etmək – bu hərəkətlərin heç biri təzə peyda olmayıb, nabələd şeylər deyil. Bir halda ki, dərin inam və etiqad bəslənən, iman gətirilmiş dini hisslərə, inanclara birbaşa toxunurlar, o baxımdan seksual davranışlar və ailə quruluşu barədə hüquqlar həssas məsələyə çevrilirlər. Burada LGBTİ+ hüquqlarını inkişaf etdirənlərin qarşısında duran ən iri maneə insanlarda LGBTİ+ haqqında dolğun, həqiqi məlumatlılığın, biliyin, lazımi dəlillərin olmamasıdır.

Bu, Azərbaycan üçün də tanış mənzərədir. Eyni şeyi - qısnayıcı-qadağanedici-xorgörücü münasibəti Azərbaycanda da din və milli mentalitetlə əsaslandıranlar çoxdur. Şəriət hüququnun və yerli adət-ənənənin yaratdığı, əsrlərlə davam etmiş, sosial-psixologiyada dərinlərə kök atmış mentallığının təsiri altında bunlar ən çox və ən başlıca arqument kimi səslənir. İdarəetmə, qanun və qərarvermə işinə cavabdeh məsul şəxslər də ən yüksək səviyyələrdə bunu öz çıxışlarında səsləndiriblər.

Avropa Şurasının İrqçiliyə və Dözümsüzlüyə qarşı Komissiyası (ECRI) Azərbaycan üzrə hələ 2016-cı il Hesabatında ayrı-ayrı faktlar əsasında bildirmişdi ki, publik şəxslərin nifrət nitqinin ənənəvi hədəflərindən biri LGBTİ+lərdir. LGBTİ+-diskriminasiya mübarizə üçün effektiv hüquqi sənəd və fəaliyyət planı yoxdur: *"əhalinin böyük əksəriyyəti LGBTQİ+ şəxslərə qarşı qərəzli fikrə sahibdir. Bunun nəticəsi olaraq LGBTQI+ şəxslər cinsi orientasiyalarını və gender kimliklərini gizlətmək məcburiyyətində qalır, həyatın bir çox sahələrində gündəlik ayrı-seçkiliklə üzləşirlər. dövlət orqanları bu sahədə az iş görüb və LGBTQI+ şəxsləri şiddət və ayrı-seçkilikdən aydın şəkildə qoruyan hüquqi sənəd mövcud deyil".* Oxşar fakt və iradlar *İLQA 2021*, *DTİ/İDİ*, ECOM, ABŞ Dövlət Departamenti, Hollandiya Xarici İşlər Nazirliyinin Mənşə Ölkəsi üzrə Ümumi Məlumatlılıq Hesabatı kimi ən son neçə hesabatda da əksini tapıb.

Beynəlxalq hüquqi çərçivə özü də elə bu kimi sosio-psixoloji və siyasi-hüquqi amillərə görə ləng inkişaf etmişdi. Elə eyni əsaslar əldə olunmuş az-çox yeni nailiyyətlərə qarşı sipər tutublar.

Aşağı və orta gəlirli, eyni zamanda da demokratik göstəriciləri aşağı ölkələrin seksual müxtəliflik üzrə qanunlarının təhlili illərdir onu göstərir ki, bu maneəyaradıcı amillər bu ölkələrdə daha qabarıq, daha kəskindir. Dünya əhalisinin çoxu da onlardır.

Buna qədər isə, hüquqi mənzərə ürəkaçan olmayıb, indi də panorama qənaətbəşx deyil. Zira, müasir beynəlxalq insan hüquqları sistemi özü hüququn böyük tarixində cavan, onun LGBTİ+ hüquqları sahəsi isə lap yeni, "toqquşduğu" doktrinaların isə min illərlə yaşı var. Az qala hüququn ilk mənbəyinə - adət hüququna istinadən sübut eləməyə çalışılır ki, çox qədimdən, LGBTİ+lər hüquqda təqib edilib. Digər aparıcı kontr-arqument də din hüququna referansdır. Tarixin ironiyası sayılmalıdır ki, özləri bir zaman yeni, fərqli fikir olduqları üçün təqib edilən, işgəncəyə, çarmıxa çəkilənlərin doktrinaları indi başqalarını xorlayıcı, özgələşdirici əsas doktirnalar kimi başqalarını işlədilməkdədir.

Yeri gəlmişkən, indiyədək hüququn sözünü bu məsələdə ən qabaqcıl məhkəmələr - AİHM, İnter-Amerika İHM, Afrika Xalqları İHM, ABŞ Ali Məhkəməsi və digərləri söyləyiblər. Məsələ də belə qoyulub: başqalarının fundamental hüquqları, daha çox etirazçı mövqe səsləndirən dini və başqa legitim ideologiya, dini inanca sahib olmaq və Onu İfadə etmək Azadlığı versus Gender bərabərliyi və Onun ekspressivizmi (ifadəedilənliyi) hüququ. İcmalarda, insanlarda LGBTİ+lərə qarşı tolerantlığın artması tendensiyasına, bu sosial konsensusa məhkəmələr daha çox çəki veriblər. LGBTİ+ lehinə qərarları artan xətlə qəbul ediblər. Lakin bu zaman özlərini moralist-doktrinaçı elan etmək (kim haqlıdır, kim daha çox haqlıdır, sualına cavab verməyə özünü omnipotent - əlahiddə səlahiyyətli haqlı görmək) xətasına yuvarlanmamaq üçün, məhkəmələr daim çalışıb ki, özlərinə sırf demokratik quruluşun (onun qarantı olan hüququn aliliyinin) peşəkar və xalis hüquqi keşikçisi rolunu biçsinlər. Bu məsələdə pionerlik edən Amerika məhkəməsi də bu rolu biçib, ondan kənara çıxmadı. Öz qarşısında duran tapşırığı o belə konkretləşdirdi: fikirlər, əqidələr, həyat tərzləri, seçimlər həmişə fərqli olub, hamı-hamını bəyənməyə bilər. Amma elə demokratik cəmiyyət müxtəliflərin, fərqliliklərin birgəyaşayışıdır.

Digər iki hakimiyyət qoluna peşəkar hüquqi müdaxilə və nəzarət edə bilən bir hakimiyyət qolu kimi məhkəmə özü üçün belə qət etdi ki, qarşısında duran tarixi-hüquqi, demokratik sosial və legal tapşırıq odur ki, müəyyən etsin: kim kimə nə qədər dözməlidir ki, dinc yaşaya bilək. Özünü və sözünü ifadə azadlığı yalnız hakim çoxluğun xoşuna gələn fikirlər, ifadə və varlıq formaları deyil. Ona görə də, məhkəmənin işi heç bir tərəfə üstünlük vermədən, bir-birinə tərs duruş sərgiləyən baxışlara bərabər məsafə saxlamaqdır. Onların barəsində moral hökm vermək yox, onların dinc birgəyaşayışını həll etmək idi.

Bu mövzuda pioner presedent - məşhur Corctaun 1978 işində olduğu kimi çalışıblar ki, o xəttə sadiq qalsınlar ki, işin mahiyyətində duran problem barədə ideoloji-moral qərar verəcək olan subyekt məhkəmələr olmasın. Məsələnin mahiyyətində isə iki hüququn qarşıdurması dayanmış olurdu: insanların gender (o cümlədən də oriyentasiya üzrə) bərabərliyi hüququ ilə, bununla bərabər qüvvəli olan başqa bir hüquq - fikir müxtəlifliyi və ideoloji (inanc) müxaliflik və buna dözümlülük. Bu ikisi arasında hansına üstünlük vermək, necə uzlaşdırmaq barədə ictimaiyyətdə və mütəxəssislərdə fikir haçalanması, ikitirəlik var. Xüsusi çətinləşdirən isə hər iki hüququn "ekspressiv kimlik" daşıyıcısı olması idi. Bu məsələni dərinləşdirirdi. Üstəlik kimlik məsələsi kimi qoyulması strateji və əsaslı idi. Nəticələrə baxanda, bu, LGBTİ+ hüquqların renessansında 'hüquqi ekpressionizmi' adlandıra biləcəyimiz addımdır.

Ona görə də, hakimlər bu bərabər ekspressiv kimlikli hüquqların qarşıdurmasında əqidəvi (ideoloji) disputda öz işlərini, dövlət hüququnun missiyasını belə konkretləşdirdilər ki, məsələ özlüyündə hüquqdan qabaq, bu ciddi fəlsəfi-ideoloji disputun ələ alıb çək-çevir etməli olan başqa sahələrin işidir. Yəni, məhkəmənin işi odur ki, sadəcə qarşı-qarşıya gələn, konfliktə girən yüzlərlə başqa hüquqlar kimi bunların da DEMOKRATİK cəmiyyətdə, yəni müxtəlifliyin birgəyaşayışı modeli olan bir cəmiyyətdə DİNC BİRGƏYAŞAYIŞIN hüquqi şərtlərini həll etsin. Belə cəmiyyət üçün isə məhz tolerantlıq və plüralizm onurğa sütunudur. Möhkəmliyinin qarantı da odur ki, hansı qayda qəbul olunursa olsun, hüququn aliliyi prinsipinə tabedir, volyuntarizm (öz başınalıq) məhsulu deyil. Hakimlər, plüralizmə istinad etdilər. Qərar LGBTİ+ tələbə təşkilatlarının xeyrinə, onların bərabərliyi nəfinə verildi.

Hərçənd ki, vesterndən, abrahamik dinlərdən fərqli olaraq, heç də bütün coğrafiyalar, dinlər və xalqlar bu dini-milli mentalitetkimi əsaslarla "silahlanmayıblar". Hər yerə sirayət etdirilmiş, yalnız son dövlər ağır hüquqi səylər nəticəsində, qəliz və uzun məhkəmə çək-çevirləri ilə qınanılmış bu qeyri-insani və qeyri-hüquqi ayrı-seçkiliyi başqa mədəniyyətlər var ki, heç əvvəl başdan etməyiblər.

Məsələn, bir sıra aborigen xalqlar üçün LGBTİ+ məsələsi (kimliyi və inklüzivliyi) yeni və ya demonik, - hər hansı bir şəkildə nəsə xor bir şey deyil, əksinə bəzilərində LGBTİ+ aktivliyi, uzun müddət müstəmləkəçilik siyasətləri ilə zorla silinmiş, "ağ avropalı"nın aşıladığı nifrət sayəsində basdırılmış, amma tam silə bilmədikləri öz əvvəlki inklüziv adətlərinə qayıtmaqdır.

Hazırda dəstəkçiləri artmaqda olan hüquqi plüralizm də məhz bu məqamları qabartmaqdadır. Plüralizm bu xalqların kənara itənmiş, unutdurulmuş səslərini, hüquq sistemlərini milli və beynəlxalq hüquqda tanıtdırdıqca, unutdurulmuş dəyərləri də, o cümlədən ayrı-seçkiliyə, nifrətə qarşı olan, cis-gender favorizminin tam əksinə - kifayət qədər homo/transcanlı olan dəyərlər sistemi də hüquqa inteqrasiya eləmək imkanı qazanacaq. Bir növ vestern LGBTİ+ aktivizmindən öyrənməkdən çox, özünü xatırlama, öz bərabərlikçi ruhaniyyəsinə artıq müasir qanunlarla, legitim qüvvə verərək qayıdışdır. Özgələrini (vesterni) təqlidçilikdə ittiham olunan aktivistlərin, bir növ, uzağa getməyib öz əcdadından 'yaxşını' götürüb işlətməyidir.

"Kolonial tərcümədə" itkilərə uğrasa da, ümumiyyətlə Qlobal Cənubun çox yerində məişət və dil yaddaşı süni hüquq və kolonial yaddaşdan daha güclü çıxıb. Ən azından təsviri və xatirəsi yaşayan ayinlər, tanrılar, sözlər seksual müxtəlifliyin izlərini, ruhunu yaşadır. Trend olaraq bəzi afrika ölkələrində milli hakimlər öz xalqlarının mədəniyyətinə yad olub onlarla hesablaşmadan, sormadan-etmədən özbaşına və zorla təlqin edilmiş bu mənfi və mənfur mirasları rədd edir, müstəmləkəçiliyin özü kimi qəbuledilməz nifrətamiz irs elanedirlər. Düzdür, Afrika İnsan və Xalqlar Hüquqları Məhkəməsinin praktikası öz Strasburqdakı həmkarının yarım əsr əvvəlki passiv durumunu xatırladır. Lakin öz praktikasını dəyişib qitədə dəyişikliyə təkan verməsinə çağırışlarlar edilir.

İndi eyni şey sosial vərdişlər, normalar yığını olan milli mentalitet anlayışına adı altında davam etdirilir. Rəsmi (pozitiv) hüquqdan kənarda saxlansa da, reallıqda sosial normativ ("yazılmamış qayda") kimi tüğyan edir. Təsadüfi deyil ki, Avropanın ən homofobik ölkəsi Azərbaycanda bu fobiyaya ən çox haqqqazandırıcı arqument məhz "ənənələrimiz" sözündə ifadə edilir. Uzun müddət dövlətlərin və cəmiyyətlərin rəsmi idarəetmə idologiyası olmuş dini konseptlərin, - kanon, şəriət, buddizm və digər təlimlərinin təsirləri altında homoseksuallıq və trans olmaq kəskin pislənilib və təqib edilib. Tibbi və mənəvi-əxlaqi xəstəlik, nöqsan kimi ən ağır həddə - cinayət cəzası ilə, cürbəcür xurafatçı "korrektiv çarələr" ilə təqib və təhkim edilib. Hakim zümrələr, kütlələr özlərinin bu əsassız və təbii hüquqa zidd xorgörmələrini, gözügötürməzliklərini bugünün özündə də sekulyar müasir dövlətdə belə elə həmin bu köklü praktika ilə əsaslandırmağa davam edirlər. 'Qanunlardan niyə silmir, qanunda sildiklərini düşüncələrdən real silməyə niyə can yandırmırlar' bəhanələri bu olur. Adətləri dönə-dönə meynstrimdə, gündəlik və kütləvi düşüncədə xatırlatmaqla, din doktrinalarını konservativ interpretasiyaları hesabına öz mövqelərində daha da bərkitmələr edirlər. Ona görə, təsadüfi deyil ki, milli və dini mülahizələrə sayəsində, yaxud doktrinaların selektiv olaraq zorakılıqdan yana tətbiqi nəticəsində homo/transfobiya dərin kök ata bilib və qopmaq bilmir. Həm də LGBTİ+ uzun müddətliyinə (onların expansiyası, kolonializm sayəsində isə dünyanın dörd bir yanında) sodomizm adı altında demonlaşdırılmış və kriminallaşdırılmışdır. Həmin ekstra-juridik doktrinalar və stiqamaların ardında cinsi yolla keçən HİV viruslara görə stiqmalar da əlavə olunub.

Təsadüfi deyil ki, BMT-də seksual oriyentasiyalar içindən homoseksuallıq ilk dəfə yarım əsr sonra, XX əsrin lap sonlarında – 1994-cü ildə İnsan Hüquqları Komitəsində müzakirə edilib və homoseksuallıq əleyhinə qanunlar (sodomaziya) insan hüquqlarının pozuntusu sayılıb.

BMT-nin özündə Baş Assambleyada LGBTİ+ mövzusunda tabunu qıran ilk bəyannamə 2008-ci ildə qəbul olunub, o da Qətnamə olmalı imiş, az ölkə dəstək verdiyindən (193-dən 96-sı, dünyanın yarıdan da azı) hüquqi məcburetmə qüvvəsi olmayan Bəyannamə kimi qəbul edilib. Azlıqda, yaxud əlverişsiz durumda olan marjinal qruplarla bağlı eyni qızğın opponent-proponent çəkişmələri ilə indi də davam edir. LGBTİ+ mövzusu isə sivil-siyasi hüquqlar üzrə hərəkatdan bəri bu məsələdə xüsusi avanqardı təşkil edir. Lazımi hüquqların hüquq kimi tanınması, başqa sözlə "kağız üstünə" düşə bilməsi, sonradan amma eləcə kağız üzərindəcə qalmaması - reallıqda işləməsi üçün dayanmadan çəkişmə və iş gedir. Ona görə, LGBTİ+ hüquqlarını qoruyan beynəlxalq mətnlərindən əlavə həmin beynəlxalq sənədlərin öz kontekstini də bilmək faydalı olardı.

Belə ki, 40-cı illərdən əvvəl də, XX əsrin əvvəli hüquqda LGBTİ+ mövzusuna baxış dəyişikliyi xüsusən 1917-ci il Böyük Oktyabr Sosialist İnqilabından sonrakı dəyişikliklə zamanı ortaya çıxıb. müstəqil fərdiyyətin rəhni olan əmək münasibətlərində bərabərlik, o cümlədən gender bərabərlik (cinsi bərabərliyə aid xüsusi təminatlar, bərabər işləmək və eyni qazanc almaq), gender əsaslıayrı-seçkiliyin ləğvinə dair ciddi iradə və tərəqqi idi. Məişətdə, siyasi-mülki, iqtisadi-mədəni-sosial hüquqlarda binar qadın-kişi bərabərliyindən başqa, seksual oriyentasiya və gender kimliyinin (o dövrə xas olaraq, müstəqil anlayış verilməmişdisə də) sodomiya kimi damğalanıb təqib edilməsi (kriminallaşdırılması) praktikası rədd edildi. Təəssüf ki, bu praktika və konsept ardıcıl olmadı. Yalnız əsrin ikinci yarısı müzakirə edilsə də, natıcə dəyişmədi, əvəzində ideoloji rəqib düşərgədə gənclərin kontr-kulturoloji inqilabi hərəkatları, üçüncü dalğa – "yaşıl" hüquqlar dövrünün hadisələri və ondan sonrakı indiki dövrəcən uzanan nəsil LGBTİ+ məsələlərində nisbətən müvəffəq ola bildilər. Sədası beynəlxalq hüquqda dəyişikliklərdə əksini tapdı.



## *Bərabərliyin universalığının universallaşması*

1948-ci il Universal Bəyannaməsindən əvvəl BMT-nin öz təsis Nizamnaməsi (Charter) qəbul olunmuşdu və onun travail préparatoire (hazırlıq-müzakirə sənədləri) göstərir ki, Millət Liqasının bərabərlik və insan hüquqları məsələsində 'dişsizliyindən', Müharibədən və Holokostun faciələrindən nəticə çıxararaq BMT-i işlək effektiv mexanizm olmasına çalışanlar məhz və ən çox *universal bərabərlikdə* israr etmişlər. Gərgin müzakirələrin ən başlıcası elə məhz universal bərabərlik vəd edən *13-cü maddə kimi* bir neçə maddə ətrafında olmuşdur. Bu saysız hüquqları real *hüquqi* müxanizmə salıb işlətmək üçün isə konkret hüquqi paktlara ehtiyac var idi. Onların qəbulu dövlətlərin iradəsindən asılı idi deyə, vaxt tələb olundu. Azı 20 il.

Ona qədər isə, hüququn avanqardlığına iddialı olan Vestern dünya, Amerika və Avropada regional səviyyədə mexanizmləri işə saldı. Onlardan bizim coğrafiyaya aid olan *Avropa İnsan Hüquqları Konvensiyası (1950, q.m 1953) 14-cü maddəsində* də ayrı-seçkiliyə qadağa eynilə təsbit edib. Müvafiq mətnlər aşağıdakı kimidir:

## BMT Universal İnsan Hüquqları Bəyannaməsi:

Maddə 1. Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilib və onlar bir-birinə münasibətdə qardaşlıq ruhunda davranmalıdırlar.

Maddə 2. Hər bir insan, irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır. Bundan əlavə, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, heç bir fərq qoyulmamalıdır.

Maddə 7. Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanlar, hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər.

Maddə 12. Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, sərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir.

*Avropa İnsan Hüquqları Konvensiyası. Maddə 14 – Ayrı-seçkiliyin qadağan olunması*
Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər status kimi hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

Lakin hüquqi olaraq, Bəyannamə sadəcə bəyandır, məcburediciliyi olmayandır. Onu real işlədəcək konkret hüquqi qüvvəli və dövlətlərin öhdəliklərini müəyyən edən sənədlər - müqavilələr illər sonra təsdiqləndi. Onların ən əsaslarını indi biz məşhur QOŞA PAKTLAR adlandırırıq: Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Pakt (ICCPR) və İqtisadi Sosial və Mədəni Hüquqlar üzrə Beynəlxalq Pakt (ICESCR (1966, q.m 1976).Qısa adıyla Mülki-Siyasi Pakt (ICCPR) *16-cı maddəsində* bütün insanlara universal - *fitri təbii* bərabərliyinin həm də hüquqi bərabərlik olmasını möhkəmləndirdi: *hər kəsin harada olmasından asılı olmayaraq, hüquq subyekti kimi qəbul edilmək hüququ var.*

*Bu mətnlərin, xüsusən də 16-cı maddənin orijinalist məzmunundan, maddənin ruhundan, Universal Bəyannamənin 1, 2, 7-ci (irqçilik və köləliyi qadağan edən) maddələri ilə əlaqəli təhlilindən açıq-aşkar görürük ki, bu normalar sayəsində hər şeydən əvvəl insan övladından heç bir kimsənin bir daha heç zaman əşyalaşmayacağı və yadlaşdırılmayacağı elan və tələb edilir. insan olan kimsənin hüquqdan kənar saxlanMAması qəti təsbit edilib. Nəzərə alaq ki, insanlıq tarixi, onun siyas-hüquqi tarixi geniş götürəndə, bir növ, başdan-ayağa məhz Ayrı-seçkiliyin, Bərabərsizliyin törətdiyi böyük fəsadların toplusu kimi qarşımıza çıxır. Belə bərabərsizliyi "icad" etmənin və legitim (haqlı) "elan" etmənin öz səbəbləri, cürbəcür üsulları, motivləri, antropoloji-sosial hərəkətverici qüvvələri var. Onlar indi də aktiv və aktualdır. Bu səbəblər, dinamolar nə olursa olsun, mübahisə yoxdur ki, həmin bərabərsizliyin özü çox dəhşətli fəsadlara səbəb olub. Günümüzdə də, təəssüf ki, bais olmaqda davam edir. Ən son isə, COVID-19 qlobal böhranı onsuz da narahatverici dərəcədə olan bu ayrı-seçkiliklərlə bağlı vəziyyəti daha da gərmişdir. Onsuz da resurslara çıxışın qıt və qeyri-bərabər paylandığı şəraitdə bərabərsizliklərin qaçılmaz fəsadları daha dərin və narahatverici olmaqdadır.*

İnsan qruplarını hüquqdan kənar elan edib özgələşdirməkdə, hüquqsuzlaşdırmaqda hüquq normaları alət kimi xeyli (sui-) istifadə olunub deyə BMT Bəyannaməsinin bu cür mütərəqqi normaları çox önəmli *bünövrə daşı rolu* oynayıb. Bütün sonrakı normaların yaradıcıları da bu mətnləri özlərinə mayak götürmüşlər. Ona görə də, BMT-nin adıçəkilən universal bərabərləşdirici və inkluzizasiya normalarının, xüsusən 1, 2 və 16-cı maddələrin əhəmiyyəti böyükdür.

40-cı illərdə müasir beynəlxalq hüquq da bu dərin kökləri olan bərabərsizliklər və ayrı-seçkiliklərin ən son və ən ağır, ən dəhşətli "zəhərli meyvəsi" olan İkinci Dünya Müharibəsindən sonra insanlığın onun fəlakətlərindən çıxartdığı dərslərdən biri kimi ortalığa qoyulurdu. Beynəlxalq hüququn təməli mütərəqqi qüvvələr tərəfindən elə qoyulmağa çalışılırdı ki, insanlığın bir daha əvvəlki fəlakətli xətalara qayıtmasını önləyə bilsin. Sirr deyil ki, həmin xətaların əsasında isə xeyli dərəcədə dərin kök atmış stereotipik baxışlar, xorgörmələr, özgələşdirmələr, düşmənçilik təbliğatları dururdu. Bu cür normalar iləçalışılır ki, universal insan ləyaqəti müxanimin məhvəri olsun. Ən ümdə, ən mərkəzi yerə insan ləyaqəti qoyulsun. Artıq indiyədək mövcud olmuş və müharibələrə, toplu qətliamlara, zorakılıqlara, xorgörmələrə *əsas baiskar* olmuş həmin nifrətamiz (nifrət əsaslı) düşüncə tipləri institutlaşa bilməsin. Hüquqla və ya hüquqda möhkəmlənə, qanunlara düşə bilməsin.

Bununla da, vacib idi ki, bu diksriminasiyalar bir daha heç kimsələrə qarşı dövlət(lər)in rəsmi siyasətinin, hüquq siyasətinin əsasında dayana bilməsin. iki dünya müharibəsi arasındakı dövrdə problemlərin qeyri-zorakı sivil həlləri üçün yaradılmış Millətlər Liqasının "dişsizliyi" və fiaskosu bu dəfə mexanizmləri elə tədbirli və səhmanlı qurmağı tələb edirdi ki, doğru-düzgün olsun, yəni istər dövlət olsun, istər fərd, güclü olanların zəifləri, özünü "üstün" sayanların digər "həqir" gördüklərini özgələşdirə bilməməsi üçün, əzə və aşağılaya bilməməsi üçün hüququn aliliyi təsbit olunsun. Daha işlək və işəyarayan olsun: əməl etdirən orqan və əməl edilməyəndə buna məcbur edəcək ixtisaslaşmış (kvazi)-məhkəmə olsun. Məhz bu prinsiplərin yaratdığı mexanizmlər LGBTİ+ hüquqları da daxil çoxsaylı marginallaşmış, azlıqda və təcriddə, assimilə və qısnamada olan qrupların hüquqlarını reallıqda genişlədəcəkdi.

Paktın 17-ci maddəsi ilə şəxsi həyata, 26-cı maddəsi ilə isə universal qanun qarşısında bərabərliyə, hüquqların bərabər qorunacağına qarantiya verilirdi. Oxşar norma Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsində yer alır. Fəqət, bu qarantiyalar verilsə də, Paktın 3-cü maddəsi gender bərabərliyini yalnız binar - kişi və qadın arasında elan edirdi. Pakt evlənmək, ailə, uşaq hüquqlarını (uşağın ad və vətəndaşlıq hüququna qədər) hüquqi statussuz, bir növ doğulandan "sahibsiz" qalmaması üçün konkret təsbitlər etmişdi. Lakin, Paktın 23-cü maddəsindən görünürdü ki, bu ancaq kişi və qadın arasında nikaha aid edilib. Bu hal və sonradan praktika da göstərdi ki, mətnlər o dövrün klassik qəbul edilmiş təsəvvürləri çərçivəsində yazılmışdı. O vaxtdan böyük bir zaman kəsimin keçməsi isə sübutudur ki, onları asanlıqla dəyişməyə hazılaşmayıblar.

Özünün *24-cü maddəsində* Pakt cins anlayışı da daxil daha geniş siyahı verir: insanların irqi, dərisinin rəngi, cinsi, dili, dini, milli və ya sosial mənsubiyyəti, əmlak vəziyyəti və doğuşu əlamətinə görə ayrı-seçkiliyini qadağan edirdi. Xoşbəxtlikdən 26-cı maddə bərabərliyin qarantı olan mexanizmi - ayrı-seçkiliklərin növbənöv hamısının qadağan olunması məsələsini qeyd edəndə 24-cü maddə ilə özünü limitləməyib, daha geniş və açıq məzmuna malik olan "digər əsaslar" ifadəsini nəzərdə tutur.

*Maddə 26 Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və qanun istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir.*

Bu o deməkdir ki, *siyahını açıq saxlayır:* sonda *"digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir"* bildirir. Bununla, müəlliflər, bir növ, bəşər tarixinin nifrət və zorakılıq üçün çoxsaylı "əsas"larının uzun siyahının olduğunu, bunlar azmış kimi yenilərini də "tapıb", bəhanə edib ortalığa atmaq kimi köhnə vərdişini, "icadkarlığı"ni nəzərə alıb. Sonradan ortaya çıxacaq, dərk ediləcək, fərqinə varılacaq ayrı-seçkiliklərin ola bilməsi ehtimalı ilə siyahını açıq saxlayıb. Bunun da praktik xeyri o oldu ki, sonradan seksual oriyentasiya və gender kimliyi kimi o vaxt tənzim edilməyən nüanslar, bu kimi dünya üçün köhnədən var olan, HÜQUQ üçün yeni aktuallaşan, müzakirəyə çıxarılan çeşidli ayrı-seçkilikləri beynəlxalq hüquqçular hüquqi təsnif edə bilsin. *Elə belə də oldu: indi seksual oriyentasiya meyarı həmin "digər" sözünün altında ehtiva olunan hal sayılır.*

Belə ki, ilk növbədə BMT İnsan hüquqları qurumları BMT-nın öz qoşa Paktlarına verdikləri rəsmi şərhlərində, həmin Paktlar və digər Konvensiyaları işlətmək üçün yaradılan Komitə(lər), çoxsaylı Xüsusi Məruzəçilər bu hüquqi inkluzivliyi təsdiq etdilər. 1994-cü ildə BMT-də ilk homoseksual hüquqları işi qalib elan edildi: Siyasi və Mülki Hüquqlar üzrə Paktın icraedici orqanı olan BMT İnsan Hüquqları Komitəsi o dövr üçün qızğın müzakirələrə və dəyişikliklərə səbəb olacaq məşhur *Toonen v. Avstraliya işində* müsbət qərarını verdi. Avstraliya qanunları yetkin yaşlı kişilərin könüllü seksual həyatını sodomasiya cinayəti sayırdı. Komitə bildirdi ki, Pakt oriyentasiyanı da qoruyur, belə qanunlarla isə dövlətlər Paktın 17, 26-cı maddələrini pozur. Ən çox müzakirə olunan kontr-arqument homoseksualların 80-ci illərdən bəri QİÇS (AİDS) kimi HİV-lərin yayılmasında xüsusi payının olmasıidi. Komitə cavab verdi ki, hətta elə olsaydı da, belə hallarla məhz cinayət cəzası ilə mübarizə aparmaqmı gərəkirdimi, bunun effektivliyi sübut olunmur.

Məsələni dövlətlər BMT qurumları qarşısında XXI əsr başlar-başlamaz yenidən qaldırdılar. BMT İnsan Hüquqları Komissiyasına Braziliya (2003) seksual orientasiya zəminində ayrı-seçkiliyə qarşı Qətnaməni, Norveç (2006) isə 54 ölkənin adından həm oriyentasiya, həm də gender kimliyi zəminində zorakılığa qarşı Birgə Bəyanatı, Argentina (2008) isə Baş Assambleyaya 66 ölkə adından oxşar Birgə Bəyanatı təqdim etdilər. Sonuncu bəyanata opponent qətnamə də Ərəb Liqası və İslam Əməkdaşlıq Təşkilatının dəstəyi ilə dərhal irəli sürüldü. Hər ikisi imzaya və polemikalara açıqdır,qəbul edilmədən qalır. 2011-ci ildə Cənubi Afrika Respublikası rezolyusiya tərtib edərək başqa bir mexanizmi (VDPA – Vyana Deklarasiyası və Hərəkət Planı) işə salmağa çalışdı. BMT İH Ali Komissarlığına (OHCHR) onun yaradılma qayələrindən birini xatırladaraq tələb edildi ki, 1993-də Vyanada konsensusla Ali Komissarlığı ondan ötrü yaratdıq ki, soyuq savaş sonrası dünyada hüquqları qorumağı yeni səviyyəyə qaldırsın, nəzarəti güclü olsun, daha zəif qorunan dövlət, xalqlar və qruplardan daha yaxşı muğayat olsun. Görəcəyi bir iş də odur ki, Komissarlıq VDPA-nın follow-up və implementasiya HESABATLARI hazırlasın. Artıq vaxtdır ki, SOCK (SOGI/Sex.Orient & Gen.ID) zəminində zorakılığa dair bütün hərəkətlər, praktikalar və qanunlara dair belə HESABAT olsun. İllərlə aparılan işdən sonra və çətinliklə (23 +, 19 -, 3 n/a) qəbul edilmiş bu qətnamə ilk belə sənəd olduğu üçün tarixi sənəd sayılır. Həmin qətnamənin tələbilə hazırlanan ilk Hesabat (Noy.2011) nifrət cinayətlərinin geniş sənədləşməsi idi. Seksual həyat üçün hamıya eyni yaş həddi, demonizasiya edən praktikaları, bütün cinayət qanunlarını ləğv etməyə çağırırdı.

Avropa İnsan Hüquqları Konvensiyası və Məhkəməsi bu baxımdan aparıcı rol oynayıb. Düzdür, bundan ötrü bu aparıcı məhkəməyə də dekadalar lazım gəlmişdi. Buna səbəblər: (i) mahiyyətcə subsidiar instansiyadır, yəni bu məsələləri ilk növbədə dövlətlər öz əhalisi və hüquq sistemi ilə özü həll etməli idi. Orda onlarla fərd məhkəmələrdə iş qaldırılmalı idi, onlardan da yalnız az bir hissəsi təkəmseyrək Məhkəməyə çata bilirdi. (ii) Peşəkar və xalis hüquq-məhkəmə instansiyası idi:xalqların yerinə ictimai vicdana dair bir məsələdə mənəvi-etik qərarverici özünün olmamasına xüsusi fikir verirdi. Buna görə Strasburq Məhkəməsi regional konsensus testini tətbiq etdi, (iii) yəni ölkə-ölkə, xalq-xalq tendensiya nədirsə, onu izlədi. O özü sinxron formalaşmamış süni hüquq akseleratoru rolunu oynamaq istəmədi. Bununla belə, addım-addım, 80-ci illərdən bəri heteronormativ olmayanların ənənəvi demonizasiyası və kriminalizasiyasına ciddi zərbə vuran qərarlar qəbul etdi. Onların məcburi qüvvəsi, qərardan çıxarılası 'hüquqi ibrət' isə bütün 47 ölkəyə aiddir.

Ardınca Məhkəmə dövlətlərin NEQATİV ÖHDƏLİKLƏRİNİ icra edib, bununla kifayətlənməyi yetərsiz sayıb. Dövlətlərin "Şəxsi həyata qarışmamaq tələb olunur, qarışmadım, müdaxilə etmədim, pozuntu yoxdur, bu qədər yetər" deyib məsuliyyətdən yayınmalarını, sistematik pozuntulara çarə etməkdən qaçmalarını, qanunlarda ayrı-seçkiliyə əsaslanan normaları islah etməkdən boyun qaçırtmalarını, başqa sözlə bütün növ 'hüquqi cığallıq və şıltaqlıqlarını' dözülməz, qəbuledilməz saydı. Pozitiv öhdəlikləri konseptini genişlətdi. Yəni, elə situasiyala var ki, - LGBTİ+lərə dair işlər bu qəbildəndir, - sadəcə müdaxilə etməmək hüququ real, əlçatan etmir. İlluzor olmaqdan xilas olmur, hüququn mahiyyətinə xələl gəlir. Belə hallarda zəruri aktiv hərəkətlər edilməlidir. Bu aktiv hərəkətləri etmək pozitiv öhdəliklər daşımaq deməkdir. *Xüsusən də, nöqsan sistemdən irəli gəlirsə, bu dövlətin vəzifəsidir ki, bütün lazımi hüquqi, maddi, texniki hərəkətləri etsin ki, sistematik problem (məs. ayrı-seçkilik) ləğv olunsun. Bununla da təkrar və kütləvi pozuntulara dübarədən rəvac vermiş olmasın. Eyni yolu Məhkəmə özü də keçib: müdaxilə etməyib dövlətlərə maksimal manevr-qiymətləndirmə azadlığı verdiyidövrdən dövlətləri pozitiv öhdəliklərə təhkim etməyə qədər inkişaf edib.*

*Nəticədə, AİHM tanıdı ki, doğum şəhadətnaməsində ad və cinsiyyət qrafası dəyişdirilə biləndir, cinsdəyişmə əməliyyatı sonrası tibbi həqiqət və tibbi nəticələr hüquqi nəticələrə çevrilə, hüquqdan tanına bilinməlidir. Bundan ötrü şəxs xərclərini sığorta şirkətindən ala bilər və bu əməliyyatı zəruri-tibbi yox, keyfi bir estetik seçim sayıb ödəmə etmək istəməyən şirkətin arqumentinə qarşı izah etdi ki, belə əməliyyatın tibbi vacibiyini ümumiyyətlə mütləq əsaslandırmağa şəxs borclu deyil. Bir sözlə, məhkəmə hüququn tibbi-sosial nəticəni çevik və proporsional şəkildə tanımalı olmasını tanıdı. Həmçinin AİHM LGBT+lər və onların həmnişinləri, eləcə də onların ailə üzvləri arasında "ailə bağı" və sair şəxsi və ailə həyatı hüquqları olduğunu tanıyıb. Başqa sözlə, Məhkəmənin seksual oriyentasiya və gender kimliyi və LGBTİ+lər barədə presedent hüququ onu göstərir ki, bu məsələrlərdə Strasburq uzun müddət tərəddüd edib gözləsə də, dövlətlərə əvvəlcə geniş qiymətləndirmə sərbəstliyi verib özü moralist təşəbbüskar olmamaq, passiv arbitr olmaq istəmişdi.*

*Mövqeyi bu olmuşdu ki, bu məsələdə şəxsin hüquqları ilə cəmiyyətin, dövlətin maraqları arasında ədalətli balansı qurmaq lazımdır və bu ölkələrin ilk növbədə işidir, çünki öz cəmiyyətlərinə onlar daha yaxındır, bu baxımdan qərar verməyə ən yaxşı mövqe, məlumat və imkanlar dövlətlərdədir. Sonradan bildirdi ki, sosial, mənəvi, hüquqi, tibbi dəyişiklikləri dövlətlər və məhkəmə görməzdən gələ bilməz, əksinə bu çağırışlara cavab verməlidirlər. Hüquq aktiv subtansiyadır. Bundan ötrü də Məhkəmə inkişafda olan məsələlərlə bağlı regional konsensus testi tətbiq etdi: artıq qitədə LGBTİ+lərə qarşı 47 ölkənin bir çoxunda münasibətin dəyişən müsbət axarını (tendensiyanı) nəzərə aldı.*

Məhkəmə tanıyıb ki, dövlət individual şəxsin bioloji həqiqətlərini – bu olduqca şəxsi, şəxsiyyətin ən mərkəzi, ən məhrəm məsələsini 8-ci maddə (şəxsi həyatın qorunması hüququ) ilə müdafiə etməlidir. Dövlətləri çağırdı ki, dövlətlər: bu halları şəxsin bədəni üzərində qərarlarına dair muxtariyyətinə, şəxsi həyatın məhrəmiyyətinə müdaxilə etmədən tanımalı; Ona görə də başqaları ilə eyni şəkildə öz reyestr sistemlərinə müvafiq şəkildə salmalı, bunun üçün nə hüquqi, texniki və s. dəyişiklik lazımdırsa, özü etməlidir. Yəni şəxsi öz istədiyi kimi yox, şəxsin özü özünü qəbul, hiss və təqdim etdiyi kimi qəbul və qeyd etməlidir.

Bu fikir məhz akademik-publisistik müzakirələrdə geniş işlənib məhkəməyə çatmışdı: gender bədən və genitaliyalardan daha geniş anlayışdır deyə, anatomik yox, avtonomluğa (özünü bəyan) konseptinə üstünlük verməlidir. Şəxs cinsinə görə mütləq əməliyyat keçirməlidir deyə bir tələb eksessiv (lüzumsuz artıq və ağır) tələbdir. Bu ciddi addımı dövlət tənzimləyə bilər, lakin bu tənzimləmə şəxsin hüququn təmin etməyə yönəlməlidir, lüzumsuz maneçiliyə çevrilməməlidir. Əks halda, - Məhkəmə hesab edib ki, - bu ayrı-seçkilik aktı, şəxsin hüquq və azadlıqlarına, şəxsi həyatı və bədəni üzərində qərar vermək hüququnun və müasir texnologiyanın nəaliyyətlərindən başqaları kimi faydalanmaq hüququnun pozuntusu olardı. Bu qərarlar verilərkən birtərəfli propaqandanın ya da hansısa impozisiyanın yox, hərtərəfli araşdırmanın nəticəsi idi. Bura hüququn qarşısında duran çoxsaylı sualları, dövlətlərin ənənəvi narahatlıqları və etirazlarını da ölçüb biçmək daxil idi. Bunlar əsasən hamımıza yaxşı tanış olan bu iddialar idi: cins şəxsin hiss, qəbul və iddia etdiyi (psixoloji), yoxsa anatomik kateqoriya kimi başa düşülməlidirmi, uşaqların doğuşu zamanı cinsi tibbi təsnifatlandırmaq səlahiyyəti və işi necə olmalıdır, cinsdəyişmə əməliyyatları, onların nəticələri və sığorta və s. məsələləri, bu əməliyyatlar vasitəsilə unudulmaq və tanınmamaq hüququndan cinayətkarcasına istifadə halları necə tənzim edilməlidir və s. Bu kimi pandora qutusu effekti qorxusu aşılayarcasına duran suallar isə doğru olaraq çellenc (challenge) kimi qəbul edilmiş, maneə yox, əksinə daha detallı tənzimləmək üçün əsas sayılmışdır.

Məhkəmə müəyyən edib ki, demokratik cəmiyyət məhz fərqli olanların pluralist cəmiyyətidir, dinc birgəyaşayış modelidir, azlığın hüquqlarının xüsusi qorunmasına ehtiyacı və mexanizmləri olan bir modeldir. Orda hamıya ayrı-seçkiliksiz yer ola bilməlidir. Ona görə də həmişə çoxluğun yaxud konkret bir qrup üçün xoşagələn və həmrəy olan özünüifadə formaları, ancaq onlara xoşagələn və həmrəy dəyərlər, ideyalar, onlara xoş və xas olan yaşayış tərzi, özünüifadə formaları - geyim və s. tərzi, o cümlədən fərdi, seksual və ailə həyatı modeli demək deyil. Fərdin avtonom azadlığı bu plüralist modeldə mərkəzi qorunan fenomenlərdəndir. Ona görə də, elə hüquqlar var ki, onlara müdaxilə etmək üçün dövlətin hüququn prinsipləri, əsasları baxımdan xüsusilə ciddi, samballı və inandırıcı əsasları olmalıdır. Hüquq və cəmiyyət, konkret halda LGBTİ+ hüquqlarına dair ictimai fikir və yanaşmalar daha dözümlü olmaqdan yana dəyişməkdədir. Dövlətlər bu inkişafı, dəyişiklikləri nəzərə almalıdır. Ənənəvi səthi və ümumi sözlərdən ibarət əsaslar müdaxilə üçün yetərli deyil. vaxtı keçmiş köhnəliklərdir, müasir demokratik cəmiyyətdə zərurətdən irəli gəlmir. Belə cəmiyyət üçün qəbuledilən sayılmır və şəxsi həyat bunun ən məhrəmlərindən, ən toxunulmaz qorunanlarındandır.



Qarşılaşdırılan qayğılara isə aid etmək olar: (i) ictimai fikir və sosial tələbatın yetişməməsi; qanunda lazımi bazanın olmaması (reyestr sənədlərində, Konstitusiyada və s aktlarda hüquqi təsbitin olmaması, "olsa, yazılsa edərdik" bəhanəsi). (ii) İctimai əxlaqı hər suveren xalqın özünün müstəqil müəyyən etməsi və onun qorunmasına dair dövlətin öz xalqı qarşısında hüquq və vəzifələrinin, cəmiyyətin də ondan gözləntilərinin olması, cəmiyyətin istək və tələbatlarını onun idarəedicisinin nəzərə almalı olması tələbi; (iii) sosio-psxioloji olaraq da, texniki-linqvistik olaraq da cins, ailə, ad-soyad, dil məsələlərində cins anlayışlarının, terminlərin uzun əsrlərdən bəri dərin oturuşmuş şəkildə (binar və seksist) olması, bunun isə onsuz da ağır olan çətinlikləri birə-beş artırması; (iv) ictimai-dövlət idarəetməsində intizamlılıq faktoru: (o cümlədən, doğumun reyestri, tibbi və sosial sığorta, maliyyə-pensiya, uşaq, ailə və övlad hüquqlarının reyestri, sosial təminatları, vərəsəlik və sair əmlak rejimləri, cinayət təqibi baxımdan identifikasiya və s.) hüququn çeşidli sahələrinə aid ciddi və kütləvi xarakterli məsələlərdə intizamlılıq, davamlılıq, səhmanlılıq, unifikasiya qayğıları, kəskin və manipulyasiyaya açıq dəyişikliklərdən çəkinmək; (v) çoxlu normalar, hətta bəzən Konstitusiya belə dəyişməli ola biləcəyindən inteqrasiyanın vaxtaparanlığı və sərfiyyatlı olması, sair bu kimi ciddi qayğılar. (vı) Siyasi dairələrin seçicilərin səsini qazanmaq naminə onların fikirləri (meynstrimlə) hesablaşmalı olması faktı və s. Məhkəmə bildirdi ki, o xalqların və dövlətlərin yerinə qərar vermir, onun işi Avropa məkanı üzrə hüquqi səhmana nail olmaqdır.Regional konsensus isə daha çox ondan yanadır ki, müasir demokratik cəmiyyətdə bu cür xorgörmə və hüquqsuzlaşdırma demokratik zərurətdən irəli gəlmir, əksinə onun təməl prinsiplərindən birinə - ayrı-seçkiliiyn yolverilməzliyinə xələldir. Cinsi oriyentasiya və kimliyə görə ayrı-seçkilik dil, din, irqi və s. "klassik" ayrı-seçkiliklə eyni şəkildə qeyri-insani ayrı-seçkilikdir. Məhkəmə LGBTİ+ fərdlərinin hüququnun inkluziv-inteqrativ tanınmasını irəli sürdü: adı çəkilən və çəkilməyən bütün qayğı və narahatlıqlar, maneələr dövlətlərin özlərinin HƏLL ETMƏLİ və bunu LGBTİ+lərin hüquqlarının pozuntusu və ayrı-seçkiliyə məruz qalması hesabına etməməli olduğu məsələlərdir.

Hospitallaşma, tibbi və sosial sığortadan bəhrələnmək, cins fərqinə görə fərqli pensiya, evlilik və birgəyaşayış, övladlığa götürmə, dövlət qulluğuna qəbul, hərbi xidmət və s. bu kimi həyati hallarda dövlətin LGBTİ+lərin hüquqlarını tanıyıb onları başqalarından ayırmadan, inkluziv şəkildə təmin etməyini Avropa İnsan Hüquqları Məhkəməsi üzv ölkələrdən tələb edib. Bu irəliləyişə məhkəmə özü tədricən gəlib. Əvvəlcə ölkələrin öz daxili işidir demiş, buna fransız məktəbinin inzibati idarəetmə barədə arqumenti ilə yaxınlaşmışdı: yerli hökumətlər öz əhalisinə, onun tələbatlarına daha yaxındır, deməli daha yaxından bələddir, bunun üçün ən yaxşı mövqedədir, həm də lazımi hərəkətlər görülməlidirsə, bunun üçün ən çox imkanları olan da milli orqanlardır. Ona görə də dövlətlərə daha çox hərəkət və qiymətləndirmə imkanı tanıyıb.

Bununla da, Məhkəmə regional konsensusun olmasını gözləməyə üstünlük verib. Lakin tədricən ictimai fikirin dəyişikliyini özü nəzərə aldığı kimi, dövlətlərdən də tələb edib ki, nəzərə alsınlar. Bu baxımdan Məhkəmənin ən əsas nailiyyətləri sayıla bilər: seksual oriyentasiya və cinsi kimliyin şəxsi həyatın müstəqil və ən intim hissəsində yer almasını təsbit etməsi; "digər ayrı-seçkiliklər" ifadəsi altında Konvensiya ilə qorunduğunu bildirməsi; bu əsasla ayrı-seçkiliyin digər ("klassik" adlandırıla biləcək dil, cins, irq və s.) əsaslarla edilən ayrı-seçkiliklər kimi, onlarla tamamilə eyni səviyyədə, onlardan fərqsiz, eyni dərəcədə aşağılayıcı, eynilə qeyri-insani, eynilə geridəqalmış təfəkkür məhsulu bir ayrı-seçkilik olmasını (14-cü maddənin pozuntusunu) tanıyıb.

Hənuz axsayan işlərdən biri isə odur ki, Konvensiyanın 12 saylı Protokolu (2000) bütün üzvlərin ratifikasiya etməyib. Orda isə, hər hansı hüquqdan (yerli qanunvericilikdə nəzərdə tutulan hüquqlar da daxil olmaqla) istifadə zamanı bərabər yanaşmağın təminatı kimi qadağan edilən ayrı-seçkiliklər dairəsini daha da genişləndirir. Protokolun rəsmi şərhi olan Hesabata əsasən, bu Protokol, insan hüquqlarının qorunmasının *təməl elementi* olan ayrı-seçkilikdən müdafiəni gücləndirmək məqsədilə, xüsusilə cinsi və irqi bərabərliyin necə təmin olunması ilə bağlı müzakirələr nəticəsində yaranıb. Bununla belə Məhkəmə praktikada nisbətən effektiv və populyar olmaqda davam edir. Çünki Konvensiyanın öz mətnində birbaşa təsis edilib, qərarları qətidir, məcburidir, pozuntu aşkar edəndə kompensasiya təyin edir.

BMT Mülki-Siyasi Paktına münasibətdə Avropa İnsan Hüquqları Konvensiyası və Məhkəməsi çox praktiki rolu olub. Belə ki, bu tandem – *müqavilə və onun məhkəməsi* əsas mülki və siyasi hüquqlar üzrə dəqiqləşdirici, regional inkişaf etdirici rol oynayıb. Onlar bunu necə etmişlərsə, oxşar funskiyanı *Avropa Sosial Xartiyası* və onun icra orqanı olan Komitəsi (burda məhkəmə orqanı, təəssüf ki, yoxdur) də öz növbəsində sosial-iqtisadi hüquqlara münasibətdə icra edir. Təcrübədə bu hüquqlar, bəzən adlandığı kimi "xərcli" (costly) hüquqlar olub, həqiqi layiqli həyata keçməsi üçün, ümdə məsələ kimi prioritetləşməsi üçün müəyyən bir səviyyədə rifah dövləti, sol/sosialist siyasi canlılıq, təmsilçilik, oturuşmuş sosial dövlət konsepti kimi zəruri elementlər tələb edir. Ona görə də inkişaf etmiş Avropa ölkələrinin hesabına bu regionun orqanı bu yuridik aktivliyin lokomotivlərindəndir. O baxımdan, xüsusən də BMT Sosial İqtisadi və Mədəni Hüquqlar üzrə Pakta (ICSECR) münasibətdə bu rolu daha bariz oynamaqdadır. Cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin iş yerində, əmək münasibətləri vaxtı, sosial sferada yaratdığı problemlərlə mübarizədə Sosial Xartiyanın normaları və Komitənin qərarları konkret müddəaları önəmlidir və işləkdir. LGBTİ+ hüquqlarına həssas yanaşan və sosial dövlət konseptli ölkələrə sahib bir coğrafiyaya - Avropa məkanına aid olduğu üçün Xartiya və onu tətbiq edən Komitəsi LGBQI bərabərliliyinə praktik hüquqi töhvələr verir.

Azərbaycanın da qəbul etdiyi XARTİYANIN yenilənmiş redaksiyasında 1.2-ci maddəsi tələb edir ki, Üzv Ölkələrin öhdəliyidir ki, "zəhmətkeşlərin azad könüllü işə girdiyi vəzifədə dolanışıq üçün qazanc əldə etmək haqqını effektiv şəkildə qorusun, təmin etsin". Xartiyanın E maddəsi tələb edir ki, Üzv Ölkələr öhdəlik götürüblər ki, "Xartiyadakı hüquqlardan insanların bəhrələnməsini hər hansısa bir ayrı-seçkiliyə yol vermədən, yəni hər hansı bir əsasla - irq, tən rəngi, cins, dil, din, siyasi və ya hansısa başqa əqidəvi əsas, insanın milli mənsubiyyətinə və ya sosial mənşəyinə görə, yaxud sağlam olub-olmamağına görə, milli azlığa mənsubluğundan, doğuşdan yaxud başqa statusundan irəli gələ biləcək hansısa hala əsaslanıb hər hansı bir ayrı-seçkilik qoymadan təmin etməlidirlər".

Komitə bildirdi ki, "qənaətimizcə Maddə 1.2 altında qanunvericilik iş-məşğulluq yerlərində ayrı-seçkiliyi qadağan etməlidir və bu qadağa irq, etnik, mənşə, din, əlillik, yaş, seksual oriyentasiya və siyasi əqidəyə görə hər cür ayrı-seçkiliyi ən azından əhatə etmiş olmalıdır.". Bu norma ilə qoruma altına əmək fəaliyyətini bütün elementləri ilə bütünlüklə (əmək haqqı və mükafatlanma, irəli çəkilmə, ixtisasartırma, yerdəyişmə, işdənçıxarma, rədd qərarları, tənbeh və sair məhdudiyyət tədbirləri) ümumən əhatə etir. Lakin bu təkcə əmək prosesinin özünü yox, işəgötürmə periodu, işəgötürmə prosesi əsnasında da meydana gələ biləcək ayrı-seçkiliklər də ümumilikdə daxildir.

Göründüyü kimi artıq gender kimliyi və orientasiya məsələləri onillər əvvəlki qanunların mətnindəki "digər" anlayışının altında sığışıb saxlanmır, birbaşa mətnə çıxarılaraq, digər klassik ayrı-seçkilik kateqoriyaları ilə bir sırada explisit və bərabərhüquqlu mətndə birbaşa göstərilir. Bununla Komitə artıq bu fikrin və yanaşmanın oturuşmuş və qəbul edilmiş hüquqi praktika kimi işlənməsinin və buna alışmağın çoxdan vaxtının çatdığını bəyan etmişdir. Bundan sonra da geriçəkilməzcə belə olacağının anonsunu vermiş olub.

Avropa Sosial Xartiyası da *gender kimliyinə* görə zəhmətkeşlər arasında ayrı-seçkilik işlərinə uğurla tətbiq edilib. Bu ayrı-seçkilik geniş yayılmış və ciddi xarakteristik əlamətləri var və Avropa Şurasının cinsi oriyentasiya ilə əlaqədar məlum Standartlarına və onların getdikcə genişlənən tətbiq praktikasına baxdıqda görürük ki, bu cür orientasiyaya görə ayrı-seçkilik heç şübhəsiz E Maddəsindəki "digər əsaslar" maddəsinin təsiri altına düşmüş sayılıb.

Azərbaycan 1992-ci ildən BMT-nin hər iki Paktını, 2002-ci ildən Əsas İnsan Hüquqları və Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyasını ratifikasiya edib, Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasını tanıyıb. Avropa Sosial Xartiyasının üzvüdür. Konstitusiyaya əsasən, cinsi ayrı-seçkilik birbaşa olaraq qadağandır. "Cins" sözü öz imkanları baxımdan "seksual oriyentasiya və gender kimliyi" anlayışını əhatə edə bilən ifadə kimi şərh edilə bilər. Lakin ənənəvi olaraq Konstitusiyanın mətnindəki kişi və qadın anlayışları belə genişləndirici şərhi yoxdur. Ona görə də, birbaşa ayrıca ifadə - seksual oriyentasiya və gender kimliyi ifadəsilə diskriminasiyadan qoruyan qanuna ehtiyac var. Bunsuz da beynəlxalq hüquq bu məsələni həll etdiyi üçün seksual oriyentasiya və gender kimliyi əsası ilə də Azərbaycanda heç kimə qarşı ayrı-seçkilik edilə bilməz.

# Yerli hüquqi çərçivə

Hüquqi heç bir yenilik əldə olunmayıb. Ona görə də, təkrarçılıq ekoloji etik olmayacağı üçün, 2019-cu ilin anoloji hesabatımızda eyniadlı bölməyə, həmçinin Beynəlxalq Hüquqi Çərçivə bölməsində istinad edilmiş konsitusion normalara, eləcə də alternativ müstəqi mənbələrdən istinat etdiyimiz ölkəyə dair hesabatlarına, Bələdçilərə baxmağınız rica edilir.

# COVID-19 PANDEMİYASI VƏ MÜHARİBƏ

Nəfəs LGBTİ Azərbaycan Alyansı pandemiyanın LGBTİ+lərə təsirini öyrənmək və maddi, psixoloji vəziyyətlərini qiymətləndirmək və eyni zamanda, icmaya maddi və mənəvi dəstək məqsədilə sorğu və görüşlər keçirib. Covid-19 böhranı onsuz da köklü qərəzlə üzləşən LGBTİ+ icmasına daha çox təzyiq göstərib. Koronavirus böhranı səbəbindən tətbiq olunan karantin, LGBTİ+lərin, xüsusilə də trans seks işçilərinin bir neçə ay gəlirsiz qalmasına səbəb olub. Əksəriyyəti pulunu ödəyə bilməyib, evsiz qalmaqla üz-üzə vəziyyət olub.

LGBTQI+lərin əksəriyyəti pandemiyanın başlanğıcında özlərini yaxşı hiss etdiklərini qeyd etsələr də, lakin vaxt keçdikcə işlər əvvəlki kimi getməməyə başlayıb. Çətin şərtlərin yaranması əksər LGBTİ+ləri işlərini itirməyə və ya uzaqdan işləməyə/oxumağa məcbur edib və nəticədə, əksəriyyəti paytaxtdan ayrılıb ailələrinə yanına, bölgələrə qayıtmaq məcburiyyətində qalıb. Uzun müddət ailələrindən uzaqda yaşadıqdan sonra, eyni dam altında onlarla münasibət qurmaq çətin olub. Ailə üzvləri tərəfindən müxtəlif səbəblərdən davamlı təzyiqlərlə qarşılaşıblar: işsiz olmaları, özlərini ifadəetmədə, hələ də subay olmaları və s.

LGBTİ+lərin əksəriyyəti Nəfəs LGBTİ Azərbaycan Alyansına mövcud psixoloji problemlərinin artdığını və pandemiya zamanı normadan daha aqressiv olduqlarını bildiriblər. Onlar panik ataklarını daha tez-tez yaşadıqlarını və gün ərzində daha həssas və emosional olduqlarını qeyd ediblər. Aqressiya daha çox hökumətə və onun kilidləmə ilə bağlı verdikləri qərarlara qarşı özünü büruzə verib. İnsanların çoxu özlərini qeyri-müəyyən və inamsız hiss edib. Səbəb isə gündəlik həyatlarının hökumətin qəbul etdiyi qərarlardan asılı vəziyyətə gəlməsi olub. Qeyd etmək lazımdır ki, pandemiya dövründə Nəfəs LGBTİ Azərbaycan Alyansı da daxil olmaqla müxtəlif qruplar icmaya maddi və mənəvi dəstək göstərib.

Dövlətin müxtəlif iqtisadi, tibbi və sair sferalarda qeydiyyat-lisenziya sistemində LGBTİ+ həssaslılığı (üçüncü cins anlayışı-qrafası, yaxud xüsusiləşmiş xidmət bölgüsü, şəsi və ictimai fəaliyyətinə tam inkluziv baxış) yoxdur deyə, pandemiya vaxtı müxtəlif fəaliyyət sahələri üzrə şəxslər COVİD vaxtı icazəli şəkildə maksimal sərbəst hərəkət etmək, iqtisadi fəaliyyəti davam etmək, həmçinin dövlətdən iqtisadi və tibbi yardım almaq imkanlarını icra edə bildiyi halda bu LGBTİ+lər üçün əlavə çətinliklə və ya əlçatmaz olub.

İstər seksual xidmətlərlə bağlı olsun: ictimai xidmət sektorunun ən fragil (kövrək) və sanitar-gigiyenik həssas qismində yer alsalar da, vergidə qeydiyyatlı fəaliyyətləri olmamağına görə başqalarının - VÖEN-i olanların COVİD-lə əlaqədar vergi geri-ödənişləri şəklində aldığı yardımları sərbəst-qeydiyyatsız işləməyə məcbur olan LGBTİ+lər ala bilməyiblər.

Sosial təminat da da bu baxımdan oxşar vəziyyət olub. Konkret COVİD-lə bağlı qadın və kişilər üçün ayrı yardım paketləri, ailəlilərə və uşaqlılara prioritet verilməsi ilə LGBTİ+lər fərdi xeyriyyəçilərin nəzakət və anlayışlılığının ümidinə qalmış olurdu. Başqa zamanlardan fərqli olaraq bunu qabartmaqda məqsəd odur ki, COVİD dövründə ən həssas qruplar içində LGBTİ+lər xüsusi kövrək yer tutmuş olurdu.

Belə ki, ümumiyyətlə, məşğulluq və onun statistikası sferasında LGBTİ+ləri nəzərə alan alternativ/neytral/üçüncü cins kateqoriyasından istifadə edilmədiyi üçün əslində LGBTİ+lər vergi ödəyicisi, aktiv vətəndaş kimi də görünməyən kölgədə qalmış olurlar. Bu, adətən ailə və yaxın çevrə tərəfindən qorunmayan, qorunmadığı üçün də kövrək-həssas qruplar durumunda olan LGBTİ+ləri bir yandan qanundan kənar güc-nəzarət mərkəzlərinin, insan alveri, cinsi və əmək istismarının asan ovuna çevirə bilir. Digər yandan da hüquqi horizontda gələcəkləri, sosial təminatları barədə heç bir praktik və güvəncverici institusional qarantiya, bir dayaq görmədikləri üçün cəmiyyət və dövlətlə əsas substantiv-həyati interaktiv (qarşılıqlı mübadilə) bağları *işçi-vergiödəyici-seçici* bağları qopuq və öləzimiş olur. Bunun psixolosi-sosial qopuqluqla müşayiət olunması qaçılmaz olur. Dövlətlə qarşılıqlı verimli-alımlı təmas minimallaşır və biri birinə qarşı hüquq və vəzifələri görünməzləşir, işləkliyini, məna və çəkisini itirir. Sağlam, həvəsli, bacarıqlı, təhsilli, əmək qabiliyyətli, istedadlı fəal vətəndaş dövlət üçün “itkinləşi”. Əmək, vergi, seçki kimi dövlətin özünü vətəndaşa, vətəndaşı dövlətə bağlayan əsas basis sferalar, təmas nöqtələri olmayınca hər iki tərəfi biri-birinin tələbatlarına, gözləntilərinə, prioritetlərinə, qayğılarına laqeydləşdirir. Bununla da, insan, inansımız sırf cinsi kimliyinə və oriyentasiyasına görə bir növ vətəndaşlaşdırılmır. Əgər vaxtilə plebeylər əmlak vəziyyətinə görə imtiyazsızlaşırdılarsa, indi də bir növ Başqa sözlə, bütün qayğıları ilə bugünü və gələcəyi barədə tamamilə yalnızlaşdırılmış, marginallaşdırılıb özgələşdirilmiş və təkbaşına və icmabaşına buraxılmış bir fərd ailə, cəmiyyət və dövlətlə əslində əsas maddi arterial bağlarını qoparmış şəkildə həyatını sürdürür, yaxın qohum-əqrəbanın xeyrində-şərində iştirakdan məhrum qaldığı kimi, dövlətlə əsas verimlilik-alımlılıq məsələlərində ofsayder qalır. Bununla da, az qala bütün sferalarda görünməzləşdirilən LGBTİ+lər tibbi və maliyyə salamatlıqlarının, möhkəmliklərinin, sığortalanmalarının bugünü və gələcəyi barədə dövlətdən təşəbbüskar, yaxud başqa hansısa ciddi iqtisadi interaktiv münasibət görmədikləri üçün iqtisadi-maddi mənada da, psixoloji-sosial mənada da özünə qapanıq, yalnız özünə (öz icmasına) ümid, yalnız öz işaxtarma və görmə qabiliyyətinə arxayın, yalnız özünün yaratdığı müdafiə, sığorta, sığınacaq, himayə imkanlarına güvənməyə, bu ağır yüklə yaşamağa təhkim edilmiş olurlar. Özlərinin tapdığı çarələr də COVİD karantini kimi ictimai ifliclәşmə prosesində köməksizləşəndə, adi halda görünməyənlər daha da görünməzləşmiş, deməli köməksizləşmiş olurlar.

Açıqlandığı təqdirdə iş imkanlarının azalacağına riski yüksəkdir deyə işsiz kimi qeydə alınmaları üçün az sayda LGBTİ+, onlar da cinsi kimlik və orientasiyalarını açıqlamadan, bu onlardan soruşulmadan müraciət etmiş olur. Ona görə də, məşğulluq sahəsində ayrıca inkluziv siyasət olmadıqca LGBTİ+ların həm məşğulluq məsələsi, həm də İŞSİZ kimi sosial təminat alması müşkül olaraq qalacaq. Belə ki, bir çox sahədə, uşaq dayəliyindən müəllimliyə qədər mədəni-mənəvi inkişafla təlim-tərbiyə işlərində LGBTİ+lər uşaqlara təmasdan uzaq tutulmalı olan şəxslər kimi görünməyən bir uzaqlaşma ilə üzbəüzdürlər. İdman, spa, fitness kimi bədənə təmasla və qulluqla bağlı işlərdə ikicinsli system cinslərin sərt bölgüsü əsasında bölüşdürülür. İşəgötürən, vasitəçi və iş sifarişçiləri, işdən bəhrələnəcək olanlar arasında ya başdan LGBTİ+lərin əleyhinə iştapma zənciri qırılmış olur, ya da gərək işədüzəlmə prosesində dürüstlük zənciri pozula və bu da riskli və qanunsuz olardı. Beləliklə rəsmi və təminatlı iş sferası LGBTİ+lər üçün olduqca dardır. İnkluzivlik bu baxımdan qaçılmazdır. Başqa sözlə, toplumun bəlli bir üstün kəsimi LGBTİ+ləri diskreditə etmək üçün onların əxlaqsızlığını, seks işçiliyini, xəstəlik yaydığını, yüngül həyat tərzi sürdüyünü təkrar-təkrar irəli sürür, eyni zamanda da bunların daha fərqli bir mənzərə və layiqli, müstəqil həyat şəraiti ilə əvəzlənməsi üçün ən vacib, ən fundamental məsələlərdə önünə səd qoyur. Bərabərəsaslı yaşamaq və inteqrasiya üçün şans tanımır və ya çox qısır. Tibbi-gigiyenik, sığortalı, təminatlı iş şəraitində, ictimai əxlaqın, fiziki-psixoloji sağlamlığın və maddi nemətlərin, iqtisadi və mədəni dəyərlərin yaradılması prosesində iştiraka yaxın buraxmır. Siyasi və qərarqəbulu proseslərində iştirakdan, əmək bazarında bütün sahələrdə bərabərəsaslı rəqabətlə bacarıqlar, bilik, təcrübə, staj, karyera əldə etməkdən və özünü, arzu və tələbatlarını onların vasitəsilə qısnanmadan reallaşdırmaq imkanından məhrum edir. Nəticə etibarilə uzaq müddət üçün də layiqli və bərabər pensiya təminatı hüququndan indidən məhrum edir. Qadın və kişilərə aid iş, məzuniyyət, pensiya rejiminn fərqlərindən LGBTİ+lər necə ziyan çəkməsin və necə uğurla bəhrələnə bilsin – kimi məsələlərin müzakirəsi belə yoxdur. Bu baxımdan, qanunla qadağan deyil deməklə ayrı-seçkiliyin yoxa çıxmadığını gördüyü halda, dövəltin vaxt itirmədən pozitiv öhdəliklərini yerinə yetirib əlavə tədbirlər görməsinə ehtiyac kəskindir. Misal üçün, peşə və sair ixtisaslı təhsildə üstünlük və müxtəliflik (xüsusilə də LGBTİ+lərin özündən-gözündən iraq tutulan peşələr üzrə peşə, sənət bilikləri öyrədilməsində və işlə təmin olunmasında LGBTİ+ləri təşviq və kvotalar), sair bu kimi təşviqedici tədbirlər faydalı ola bilər və s.



Sağlamlıq və sağqalma hüququ baxımdan COVİD zamanı daha da qabaran problemlərdən biri də tibbi xidmətlər - şəxsin fiziki-psixi tamlığının professional təmasa məruz qaldığı ən böyük sfera idi. Xəstəxanaya yerləşdirmə mələləsində LGBTİ+lərin başqa yerlərdə üzləşdiyi çətinliklərdən fərqlənmir. Peşə etikası baxımdan digər yerlərdən fərqlənməli olduğu halda burda da vəziyyət ürəkaçan deyil. COVİD olmadığı dövrlərdə psixoloji xidmətdə LGBTİ+lərə kömək əvəzinə şəxsi fikirlərinin, o cümlədən dini baxışlara əsaslanan impozisiyalar (təlqinlər), qınamalar, yazıqlamalar, hətta şəxsi məlumatların açıqlanması kimi hallar ciddi narahatlıqlara və tənqidlərə səbəb olmuşdu. Digər dövlərdə digər tibbi xidmətlərdəki kimi burda da ciddi məsələ qalxırdı ki, ciyərlərdə ölümcül boğucu və şüşələşmə ilə xəstəxanaya yerləşməli olan LGBTİ+in cinsi kimliyi və orientasiyasına görə palata rejimi necə olmalıdır? Hansı cinsdən olan şəxsin hansı korpus və palatalarda yerləşməlidir? Tibbi personal və pasientlər də daxil digər cinsi kimlik və seksual orientasiya sahiblərinə LGBTİ+in, onların da həmin fərdə akseptasiya və adaptasiyası necə olacaq, bədənə qulluq və təmas, müayinə-müalicə, gündəlik gigiyena-sanitariya məsələləri necə tənzimlənəcək? Qadın və kişi bədəni üçün dozalar, fərqli preparatlar, rejimlər necə tətbiq olunacaq və tibbi heyyət buna nə qədər hazırlıqlıdır? Qarşılıqlı problem, etiraz və şikayətlər necə həll ediləcək. Tibbi vasitələr çatışmayanda ölümcül seçim məsələsində LGBTİ+lərə qarşı qərəzli hallardan sığortalanmaq üçün LGBTİ+lər və icmanı təmsil edən təşkilatlar müvafiq olaraq bütün həlqələrdə təmsil olunurmu: qaynar xətlərdə, xəstə qəbulundan çıxarışına qədər bütün pillələrdə tibbi və köməkçi personalda, qərarverici heyətlərdə, nəzarətedici vəzifələrdə, məşvərət qurumlarının tərkibində varmı? Bu kimi çoxsaylı açıq suallar bu hesabatda da cavabını tapa bilmir. Xəstənin qəbul olunduğu andan epiqrizin verilib evə yazılmasına qədər dövlətin tibbi statistikası, sənədləşmə, peyvəndlənmə, eksperimental nümunələrlə bağlı hərəkətlər, rəsmiləşmə sənədləri – bütün bunlarda heç bir LGBTİ+inklüziv system yoxdur. Gender kimlik və seksual orientasiyanın düzgün və tələbatlara uyğun qaydalarla tənzim (inkluziasiya) edilməməsinin bariz nümunəsidir. Yəni burda fakt: bütün aktorların, xüsusən də tarixən və konkret şəraitdə daha çox əziyyət çəkən fərdlərin tələbatlarını və hüquqlarını nəzərə ala bilməyən və onlara cavab verə bilməyən qayda-qanunların kor ümidinə buraxılması faktıdır. Praktika isə qaçılmazca və rədd edə bilməyəcək dərəcədə insanlarla işləməyə məcbur olduğundan, həyat və sağlamlıq, tibbi xidmət hər bir vətəndaşın və insanın haqqı olduğundan daha dinamik və konkret təmaslar onda olur. Keyfiyyətsiz və diskriminativ qanunların varlığı və lazımi inkluziv qanuni bazanın olmaması fonunda praktika da subyektiv, aksidensial və ya arbitrar faktorlara söykənəsi olur. Fərd düşür tibbi və s. personalın maddi təminatını çatdıra bilib-bilməməkdən asılı vəziyyətə, personalın etik peşəkarlığına, insafına, məlumatlılığı, dünyagörüşlüyünə, rəhminə bel bağlamaqdan başqa çarəsi qalmır.

Xəstəxanalar dolu olduğu üçün müalicə üçün yardım paketi almaq və evdə müalicə məsələləri zamanı, izolyasiya və inyeksiya rejimi üçün çoxsaylı gündəlik məsələləri həll etməyə sosial və tibbi işçilərin köməyindən yararlanmaq mövzusunda da dövlətin öz LGBTİ+ vətəndaşına ən elementar məsələlərdə, - hansı kadrı göndərməyilə bağlı belə heç bir tənzimatı yoxdur. LGBTİ+ icması daha çox əvvəllər tanıdıqları, icmadan olan və ya icmaya neytral və ya pozitiv münasibət saxlayan konkret və inanılmış peşəkarlarla işləməyə, onların xidmətindən, həm də mümkün qədər səssiz şəkildə yararlanmağa çalışıb. Əvvəlki qərəzli utandırmalara koronavirus utancı da əlavə edildiyini nəzərə alsaq mümkün səssizliklə öz problemləri ilə başadüşülən olur.

Beləliklə, COVİD-19 böhranı dünyada bir çox tibbi, idarəetmə və s. sahələrdə olduğu kimi, Azərbaycanda da LGBTİ+ icmasının cəmiyyət və dövlətlə əsas təmas nöqtələrində əvvəldən yığılıb qalan problemləri daha qabarıq, daha kəskin – maddi, fiziki, psixoloji, sosial, tibbi və sair tükənmişlik, imkansızlıq, çarəsizlik və ölümcül risklə nəfəs-nəfəsə qalmaq və boğulmaq həddində kəskin ortaya qoymuş oldu. Lakin, nə xəstələrin statistikasında, nə onlara müalicənin spesifikasına dair məlumatlarda, nə də bu dövrdə məişət və müalicə məsələlərində LGBTİ+ icması və fərdlərinə dair kiçicik bir inkluzivlik əlaməti görünmür.

Pandemiyanın ortasında, sentyabr ayının sonlarında Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ konflikti ilə əlaqədar 44 gün davam edən müharibə başladı. Müharibə hər şeyi daha da çətinləşdirdi. İnternetə giriş məhdudlaşdırıldığından, LGBTİ+lərin bir qismi iş yerlərində və təhsilində problemlə qarşılaşıb.

Bundan əlavə, Gender və Tərəqqi ictimai birliyinin gey fəalı Şaiq Kalbiyev Azərbaycan və Ermənistan arasındakı silahlı qarşıdurmada Azərbaycan ordusu sıralarında həlak olub. Onun vəfatı sosial mediada nifrət nitqi ilə müşayət olunub. Belə ki, şəhid anlayışı və adı yüksək tutulan, həmin günlərdə xüsusi həssaslıq və ehtiramla qarşılandığı halda, Ş.Kəlbalıyevin ölümünə münasibət heç də birmənalı, digər şəhidlərə olan münasibətlə bərabər münasibət olmadı. Onun vəfatı bir tərəfdən indiyədək edilmiş diskriminasiyadan və yadlaşdırmaqdan utanc duymaq çağırışları ilə, LGBTİ+lərə qarşı stereotiplərdən qurtulmaq çağırışları ilə müşayiət olunurdusa, digər yandan verbal diskreditasiya, özgələşdirmə aktları səngimədi. Ölkəsi uğruna bir şəxsin verə biləcəyi ən yüksək bədəli – canını verməsinə və bu bütün ölkələrdə olduğu kimi Azərbaycanda da yüksək tutulmasına baxmayaraq, sırf gender kimliyi və cinsi orientasiyasına görə ölümündən sonra belə onu qəbullanmayıcı fikirlər səsləndirildi. Bu başqa heç bir kateqoriyadan olan azlıq, həssas qrupa mənsub şəhid və ya qaziyə qarşı edilmədi. Rəsmi nümayəndlərdən daha əvvəl Dövlət Dəniz Agentliyinin mətbuat nümayəndəsi olan Tural Müseyibov sosial mediada belə deyib:

*"LGBT nə poxdur ki, onun üzvü də gedib bizim torpağı qoruya. Onları niyə belə hörmət-izzətlə yad edirsən axı? Onları xatırlamaq belə əhəmiyyətsizdir. Müqayisə eləməyə normal mənbə, tip, insan tapa bilərdin".*

Nifrət dolu açıqlama müzakirələrə səbəb olub, bir çox ictimai xadim Kalbiyevi müdafiə edib. Cavab olaraq Museyibov Kalbiyevin qardaşının onun homoseksual olmadığını iddia edən videosunu yayıb. Museyibov barədə araşdırma başladılıb.

Onunla həmfikir olan oxşar məzmunlu nifrət nitqləri əsasən bu məzmunda olub: şəhid anlayışını LGBTİ+lərə yaraşdırmayan, heteronormativ anlayışdan kənara çıxmasından narahat olan, dini-milli çoxluğun baxışlarının basmqaqəliblərinə pərçimləməyə çalışan çoxlu sayda insan fikirlərini sosial mediada tirajlayır, nifrət çağırışları edib.

# MONİTORİNQ QRUPUNUN MÜSAHİBİ OLDUĞU ŞƏXSLƏR

Gey kişi, 28 yaş, Gəncə şəhəri
Rəvan Nəsimi məlumat verib ki, 14 fevralda sevgilisi öpüşdükləri görüntüləri əhatə edən videonu öz şəxsi Facebook hesabında "yalnız dostlar" üçün ilə paylaşıb. Lakin dost siyahısında olan kimsə videonu götürüb homofob sosial şəbəkə hesablarına göndərib. Çox qısa bir zamanda video müxtəlif kanallar vasitəsilə yayılıb. Bir milyondan çox izlənən paylaşımlardan birinə çoxlu sayda təhqirlər gəlib, cütlük hədələnib və şifahi təcavüzə məruz qalıb. Rəvan Nəsiminin sözlərinə görə, daha sonra 8 mart aksiyası zamanı Bakıda polislər onu yürüş zamanı tanıyıb, "bu şərəfsizi tutun" deyərək əsassız şəkildə saxlayıblar. O həmçinin sixoloji travma yaşadığını və yürüş zamanı saxlandığı zaman polis tərəfindən zədə aldığını da qeyd edib.

Trans, 20 yaş, Bakı şəhəri
Pərviz Abdullayev məlumat verib ki, seksual oriyentasiyama və gender özünüifadəsinə görə valideyni tərəfindən psixoloji və fiziki şiddətə məruz qalıb. Onun bildiridiyinə görə, vəziyyət elə həddə çatmışdır ki, anası ona bıçaq ilə hücum edib. Pərviz heç bir xəsarət almadan evdən qaçmağa nail olub. Onun sözlərinə görə, evə qayıdacağ təqdirdə atasının onu öldürəyəcəyi ilə hədələnib. Hadisədən sonra Pərviz hədə dolu zəng və ismarıclar alıb.

Gey kişi, 25 yaş, Bakı şəhəri
Adının anonim qalmasının istəyən bir nəfər dostunun davamlı şəkildə təzyiqlərə məruz qaldığını bildirib. Onun sözlərinə görə, dostu seksual oriyentasiyası və gender kimliyi və özünüifadəsinə görə yüzlərlə insan tərəfindən onlayn və offlayn təzyiqlərlə qarşılaşıb.

Gey kişi, 22 yaş, Bakı şəhəri
Əli Rəhimli məlumat verib ki, Bakıda, 28 May metrosu yaxınlığında hücuma məruz qalıb. Onun sözlərinə görə, heç bir səbəb olmadan hücum edənlər həm də onun şəxsiyyətini alçaldıb. Əli bildirib ki, hadisədən sonra polisə müraciət etsə də, hələ də hücum edənlər axtarılır.

Biseksual kuir, 30 yaş, Bakə şəhəri
Vahid Əliyev məlumat verib ki, müharibə dövründə sülh tərəfdarları hədəfə tutulub. Facebook üzərindən həştəqlər ilə sülh tərəfdarlarını tapmaq asan olduğundan onun şəkilləri və profili bir qrupun əlinə keçib. Onun şəkillərini paylaşaraq sülh istəməyi səbəbindən hədəfə alınarkən petux anladırılaraq, müxtəlif müharibə tərəfdarı qrupları tərəfindən şiddət tətbiq olunmasına çağırılıb.

Trans qadın, 21 yaş, Bakı şəhəri
Vahid Əliyev məlumat verib ki, Ayan uzun müddət vərəm xəstəsi olub. Ayan 2017-ci ildə həbs olunmuş translardan biri idi. Müalicə məqsədilə əvvəlcə Tbilisi, daha sonra İstanbula gedib. Bir il olardı ki, Bakıya qayıtmış və xəstəxanada müalicə alıb. Seks işçiliyi edə bilməmə səbəbindən ancaq onun üçün yığılan maddi dəstək sayəsində yaşaya bilib. Son aylarda xəstəxanaya borcu çoxaldığından oranı tərk etmək məcburiyyətində qalıb. Ailə tərəfindən qəbul olunmayan Ayan başqa bir transın evində bir müddət yaşadıqdan sonra oksigen çatışmazlığı nəticəsində vəfat edib.



## Hüquqi çərçivə

Fərdi məlumatlarını qapalı qrupda paylaşan şəxs bununla həmin məlumatların dairəsini müəyyən edir. Ona görə də, həmin qapalı dairəyə daxil şəxslər ordan kənara istənilən məlumatı müəllifin və materialda əks olunan maraqlarına toxunulacaq şəxslərin izni olmadan yayımlaya bilməz. Xüsusən də bu şəxsi həyata dair məlumatdırsa və cəmiyyətdə birmənalı qarşılanmayacağına dair ilkin ehtimallar ağlabatan olaraq gözlənilənd irsə, bud aha ciddi diqqət tələb edir. Bu ehtiyatlılığın aşkar əksinə olaraq materialın nəini kənara çıxarılması baş verib, üstəlik və məhz homofob hesablara göndərilməsi isə aşkar qərəzin göstəricisidir. Əhalisi tam social mediada təmsil olunmayan 10 milyonluq ölkədə, baxış sayının milyona çatmasının özü fakt olaraq artıq təhlükəli hədd demək olduğu, komentlər və reaksiyalardakı şiddət və nifrətin yüksək səviyyəsi yayıcıya məlum olmalı, bunun məsuliyyətini daşımış olmalıdır. Fərdi məlumatların, çəkilişlərin iznsiz yayılması qəsdən ağır nəticələrə səbəb olduqda.

Çoxlu sayda təhqirlər, cütlüyün hədələnməsi və şifahi təcavüz aktları dərəcəsindən asılı olaraq təhqir, hədələmə kimi maddələrə tövsif oluna, mülki qaydada barələrində şikayət varsa, araşdırılıb maddi təzminat və üzristəmə tələbi ilə qarşılaşdırılmış ola bilərlər. Yaxud, daha ağırlarının əməllərində pozuntunun şiddəti ağır və ya ictimai təhlükəsi real olmuşsa, inzibati qaydada şikayət etməklə, şəxslərin inzibati xəta həddində əməl törətdiklərini idddia etməklə, xəbərdarlıq edilə, izahetmə işləri aparıla, LGBTİ+ icmasına yaxından bələd olmaq və işlərinə kömək etməyi ehtiva edəcək tərbiyəvi funksiyalı islahedici ictimai işlərə cəlb edilə bilərdi və s.

Bir çoxunu emosional qıcıq halının təzahürü, bir qismini mahiyyətinə varılmadan ümumi meynstrimi kor-koranə dəstəkləmə (sadə dildə küyə düşmək, küyə getmək, səs-küy salmaq) halları olması kimi qəbul edərsək də belə, bəzi hədə-qorxular kifayət qədər qorxuducu, real idi. Konkret hədəfə qarşı, konkret hərəkətlərə çağırmaq, konkret nüfuzlu, yəni sözünün ardınca real olaraq birilərinin gedib criminal əməli, ölüm və digər təhdidi real törətmək riski yüksək olan ictimai və ya icmaiçi vəzifəli və ya nüfuzlu şəxslər edəndə, çağırışın mətnindən və törədilən, törədilməyə təşəbbüs edilən əməldən asılı olaraq təhrik edən və icra edənlər cəzalana bilər. Təəssüf ki, ədavət çağırışlarına görə cinayət məsuliyyəti məhdudlaşır ancaq etnik, dini ilə, inzibati məsuliyyət də məhdudlaşır.

Polislərin onu məhz bu videodan tanımaları və tutma həyata keçirmələri qanunsuz olub. Bu Konvensiyanın 5-ci maddəsinin 11 və 14-cü maddələr ilə birgə pozuntusu üçün əsas ola bilər. Psixoloji travması və yürüşdə saxlandığı zaman polis tərəfindən aldığı zədə 8-ci maddənin pozuntusunu təşkil edə bilir.

Ailədaxili zorakılıq hansı əsasla olursa olsun Məişət zorakılığı haqqında qanunla tənzimlənir. Qanun psixoloji və fiziki şiddətə tərifini verib, pozuntunun ağırlığına və vurulan ziyan və xəsarətlərin ağılığına görə məişət zorakılığı haqqında qanundakı pozuntuları törədənlər İnzibati Xətalar Məcəlləsinin ...., İncayəy Məcəlləsiin 258-ci maddələri ilə, həmçinin əməldən asılı olaraq cinayət və inzibati xəta üzrə məcəlllərdə insanınz fiziki sağlamlığı, şəxsiyyəti, cinsi azadlığı əleyhinə maddələrlə məsuliyyət daşımalı ola bilərlər.

Bıçaq ilə hücum, evdən qaçmağa məcbur qalıb atasının öldürəcəti ilə hədələnmə, hədə dolu zəng və ismarıclar alması faktları da eyni dərəcədə reallıq dərəcəsindən asılı olaraq hədə-qorxu maddəsinin tövsifi altına düşür.

Yüzlərlə insan tərəfindən onlayn və offlayn təzyiqlər də mətnindən, təhdidkarın kimliyindən asılı olaraq mülki prosesdə təhqir və böhtan barədə iddialar, məişət zorakılığı və ya konstitusion bərabərliyin pozulmasına görə inzibati və cinayət məsuliyyəti, mühafizə orderi almaq və ya digər qoruyucu tədbirlər tətbiqi üçün əsas ola bilər.

metro yaxınlığında heç bir səbəb olmadan hücum və şəxsiyyətini alçaltma, bir qrup şəxs tərəfindən xuliqanlıqla adam döymə əməlidir, xəsarətdən, davamlılığından asılı olaraq cinayət məcəlləsinin 211-ci naddəsinin bəndləri üzrə cəzalanmalıdır. effektiv olmayan araşdırma double-victimization yaradır.

Xroniki vərəm xəstəsinin 2017 reydərində həbs olunması özü ayrıca qanunsuzluq və kobud pozuntu olmaqla yanaşı, Tbilisi və İstanbulda müalicədən sonra Bakıda imkansızlıqdan müalicəsini ala bilməməsi, oksigen çatışmazlığından ev şəraitində köməksiz vəziyyətdə ağrılı şəkildə ölməsi sağlamlıq və həyat hüququn, eləcə də əzab çəkməmək pozuntusudur.

Müharibə dövründə sülh tərəfdarlarının bir qisminin sırf cinsi kimliyinə görə, yaxud cinsi kimliyi heteronomativ olsa da, təhqir və gözdənsalma işi üçün məhz cinsi kimliyi və oriyentasiyanı təhqir edən ifadələrlə təhqir olunması, şəkilləri və profili bir qrupun əlinə keçib tirajlanması, şiddətə vulqar və açıq çağırışlar ifadə azadlığının və ayrı-seçkiliyin eyni zamanda pozuntusudur, hədə qorxu gəlmə real və konkret hədəfədir və etnik münaqişənin davamiyyəti üçün edilib.

# TÖVSİYƏLƏR

Hüquqi praktikada heç bir yenilik əldə olunmadığına görə, tövsiyələr bölməsi ötənilki hesabatla eynidir. Təkrarlıq ekoloji etik olmayacağı üçün, 2019-cu ilin anoloji hesabatımızda, eləcə də istinad edilmiş hesabatlarda TÖVSİYƏLƏR bölməsinə baxmanız rica olunur.

# ƏLAVƏLƏR VƏ SON

Əlavələr

Hesabatda bəzi keyslər və istinadlar ingilis dilində qeyd olunub. *Bu, əsasən həmin kontentlər barədə Azərbaycanca akademik və praktik mətnlərin çatışmazlığı üzündən belə alınıb.*

Hesabat Azərbaycan LGBTİ+ icmasından daxil olan LGBTİ+ hüquq pozuntularının qeydiyyatı və medianın monitorinqi əsasında hazırlanıb.

Hesabatı hazırladılar:

Vahid Əliyev - Proqram Direktoru
Ruslan Əliyev - Hüquqşünas

Bizimlə əlaqə

E-poçt: office@nafaslgbti.org
www.nafaslgbti.org

https://www.instagram.com/nafaslgbti/

https://www.facebook.com/nafaslgbti

https://twitter.com/nafaslgbti

https://t.me/nafaslgbti

Azərbaycanda LGBTİ+ hüquq pozuntularının monitorinqi

2020